# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 15 (3339) Cümə axşamı / 11-12 fevral 2021-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## Qanunların icra olunmamasının səbəbkarı məmurlardır



*Milli Məclisdə yeni mexanizm formalaşdırılır. Qanunların icra mexanizmi ilə bağlı Prezidentin verdiyi tövsiyələr ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Aparılan islahatların ölkənin ictimai-siyasi durumunda hansı nəfəsliyə səbəb ola biləcəyi isə birmənalı qarşılanmır. Vəzifəli məmurların öz postlarını buraxmaq istəməməsi, ölkədə hərc-mərclik yaratmaqda maraqlı olmaları ilə bağlı ehtimallar səslənir. Sabiq deputat, hüquqşünas Çingiz Qənizadə "Həftə içi"nə verdiyi müsahibədə bir çox məqamlara aydınlıq gətirib.*

**Çingiz Qənizadə,**
sabiq deputat,
hüquqşünas

**İctimai nəzarəti həyata keçirən adamlar ədalətli olmalıdır**

Səh. 3

# Səhiyyə sistemində səlahiyyət davası




TƏBİB
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

İCBARİ TİBBİ SIĞORTA
SABAHA SAĞLAM ADDIMLAYAQ



## İslahatlar qaçılmazdır

***Azərbaycan səhiyyəsi, artıq bir ilə yaxındır ki, koronavirus pandemiyası ilə mübarizə aparır. Bu müddət ərzində ölkə səhiyyəsi mövcud durumla bağlı yaranmış çağırışlara müəyyən qədər cavab versə də, bəzi məsələlərdə vətəndaş məmunluğu yaradıla bilmədi. Məsələn, pandemiya dövründə koronavirusa yoluxan xəstələr Səhiyyə Nazirliyi ilə TƏBİB arasında qaldılar. Bu qurumlar arasında səlahiyyətlərin mütəmadi olaraq artırıb-azaldılması vətəndaşları çaş-baş hala qoydu. Bundan istifadə edən sözügedən qurumlar isə necə deyərlər, vətəndaşla siçan-pişik oyunu oynadılar. Nəticədə bəzi xəstələr uçün tibbi xidmətlər heç də əlçatan olmadı və onlar öz hesablarına müalicə almaq məcburiyyətində qaldılar.***

Bəs, görəsən, postpandemiya dövründə səhiyyə sistemində islahatların həyata keçirilməsinə ehtiyac varmı? Bununla bağlı qanunvericilik bazasına dəyişikliklər edilməlidirmi? Vətəndaşın həm dövlət, həm özəl tibb sahəsində təklif olunan xidmətlərə əlçatanlığının təmin olunması üçün hansı addımlar atılmasına ehtiyac var?

■ **Azərbaycan İqtisad Universitetinin dosenti, iqtisadçı-ekspert Azər Mehtiyev hafta.az-a açıqlamasında bildirib ki, Azərbaycanda icbari tibbi sığortanın tətbiqi tibb sahəsində islahatların başlanıldığı anlamına gəlir:**

"Əslində tibbi sığorta uğurla və düzgün tətbiq olunarsa, bu pasiyentlərin yersiz xərclərdən, yersiz müayinələrdən azad olunmasına gətirib çıxara bilər. Ən azı, aparılan müayinə və müalicələrin nə dərəcədə keyfiyyətli aparılmasına nəzarət edəcək sığorta qurumu olacaq. Vəsait sığorta qurumu tərəfindən ödənildiyindən hər bir pasiyent üzrə zəruri müayinə və müalicələrin aparılıb-aparılmadığını yoxlayacaq. Həm də zəruri müalicə protokollarının olması tələb ediləcək. İnsanlar özləri də həmin protokollarla tanış olanda biləcəklər ki, həkim ona nə dərəcədə doğru müayinə və müalicə təyin edib. Bunun əsasında proseslərə nəzarət imkanına malik olmaq mümkündür. Yəni, birincidərəcəli məsələ icbari tibbi sığortanın düzgün təşkilidir. İkincidərəcəli məsələ isə səhiyyə sistemində idarəetmədə olan qarışıqlıq aradan qaldırılmalıdır.

Məsələn, Səhiyyə Nazirliyi əvvəllər həm nazirlik, həm təsərrüfat funksiyasını yerinə yetirirdi. İndi bu funksiyaları ayırmaq istəsələr də, ancaq hələ də çoxhakimiyyətlilik hökm sürür. Bir tərəfdən, İcbari Tibbi Sığorta Agentliyi var, bir tərəfdən, TƏBİB var və xəstəxalara nəzarət edir, bir tərəfdə də Səhiyyə Nazirliyi var ki, poliklinikalara nəzarət edir. Bu səlahiyyətlərin bölgüsündə, sanki mübarizə gedir. Səhiyyə siyasəti ilə təsərrüfat funksiyaları bir-birindən ayrılmalıdır. Bu təmin olunmayınca, səhiyyə sahəsində inhisarçılığı aradan qaldırmaq mümkün olmayacaq. Təbii ki, bu, təmin olunarsa icbari tibbi sığorta islahatlarının nəticələri böyük fayda verə bilər. Nəticədə, özəl tibb müəssisələri də insanlar üçün əlçatan ola bilər. Əslində, hökumət tibbi sığortanı tətbiq edərkən özəllə dövlət müəssisəsi arasında fərq qoymalı deyil. Elə sistem yaradılmalıdır ki, insanlar həmin tibbi xidmətləri özəl müəssisədən də ala bilsinlər. Nəhayət, tibbi sığorta paketinə daxil olan xidmətlərlə, paketə daxil olmayan ödənişli xidmətlər arasında düzgün nəzarətin təmin olunması vacibdir".

Ekspert öz açıqlamasında onu da vurğulayıb ki, hökumət dərman bazarı sahəsində də hərcmərcliyə son qoymalıdır: "Azərbaycana dərman gətirməsi inhisarlaşıb. Hazırda bazarda hərcmərclik hökm sürür və dərmanların qiyməti sürətlə artır. Ən vacibi isə dərmanların keyfiyyəti ilə bağlı çoxlu problem var və ona görə də müalicə effekti azalıb. Hökumət bu sahədə inhisarçılığı aradan qaldırmalı və ölkəyə idxal olunan bütün dərmanların keyfiyyətinə nəzarət məsələsi düzgün təşkil olunmalıdır".

Onun sözlərinə görə, səhiyyə sahəsində idarəetmə ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsinə də ehtiyac var: "Bu məsələdə qurumların hər birinin səlahiyyətləri dəqiqləşdirilməlidir. Bizdə TƏBİB keçici bir qurum olaraq meydana çıxıb. Hesab olunur ki, xəstəxanaların hamısı müstəqilləşdiriləcək və müstəqil idarəetməsi olacaq. Bu da zaman tələb edən məsələdir. Bunun üçün kadr hazırlığı olmalıdır. O ki qaldı, əhaliyə münasibətdə səhiyyə qanunvericiliyinə dəyişiklik edilib-edilməməsinə, əslində, mövcud problemlərin kökü elə qanunların düzgün tətbiq olunmamasından irəli gəlir".

## Yeri gəlmişkən...



**Prezident İlham Əliyev fevralın 1-də Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışında iştirak edərkən AzTV-yə müsahibəsi zamanı səhiyyə sahəsindəki mövcud vəziyyətdən də danışıb. Dövlət başçısı vurğulayıb ki, bütün bölgələrində ən müasir standartlara cavab verən xəstəxanaların tikintisi proqramı bütövlükdə artıq başa çatmaq üzrədir:**

«Çünki ölkəmizin bütün bölgələrində xəstəxanalar fəaliyyət göstərir. Son 17 il ərzində 750-dən çox xəstəxana ya yenidən tikilib, ya da ki, əsaslı şəkildə təmir edilib. Səhiyyə sistemimizin bu xəstəxana və tibb müəssisələri fondu demək olar ki, indi ən yüksək standartlara cavab verir. Bundan sonra, əlbəttə ki, biz, ilk növbədə, səhiyyə sisteminin təkmilləşdirilməsi və tibbi xidmətin xüsusilə indiki dövrdə keyfiyyətini artırmaq üçün əlavə addımlar atacağıq».

Dövlət başçısı bildirib ki, bütün bölgələrdə ən müasir xəstəxanalar, poliklinikalar, diaqnostika mərkəzləri fəaliyyət göstərir. Əgər biz buna nail olmasaydıq, son illərdə hər il 5 milyon insan tibbi müayinədən keçə bilməzdi.

«Biz indi, icbari tibbi sığorta sisteminə keçmişik. Bu keçid də mərhələli yollarla həll olunub. Pilot layihələrin icrası bizə ilkin məlumatlar verib və məlumatlar da çox müsbət idi. Pilot layihələrlə əhatə olunmuş üç şəhərdə həm tibbi xidmətin keyfiyyəti artdı, eyni zamanda, vətəndaşların məmnunluğu yüksək səviyyədə idi. Ona görə biz artıq bu sistemə də keçmişik. Əgər müasir xəstəxana fondu olmasaydı, buna keçmək mümkün olmazdı. Yəni, biz hər şeyi ardıcıllıqla edirik və yəqin ki, gələn 1-2 il ərzində böyük xəstəxanaların tikintisinə artıq son qoyulacaq və daha çox səhiyyə sisteminin təkmilləşdirilməsi, müasirləşdirilməsi istiqamətində addımlar atılacaqdır».

*İndi bu funksiyaları ayırmaq istəsələr də, ancaq hələ də çoxhakimiyyətlilik hökm sürür*

*Mövcud problemlərin kökü elə qanunların düzgün tətbiq olunmamasından irəli gəlir*

Səh. 6

ARAŞDIRMA



**"Sputnik V" və "Astra Zeneca"nın Azərbaycanda birgə sınağı**

■ Bir neçə gün sonra mövzu ilə bağlı tədqiqatı aparan şirkətlər birgə məlumat yayacaq.

■ Sınaqlar Amerika və Avropada da həyata keçirilir.

■ Bir ölkədə 2 ayrı növ vaksinin tətbiqi normal haldır.

Səh. 5

GÜNÜN FOTOSU...



**Azərbaycan Türkiyə birgə təlimləri...**

GÜNÜN SİTATI



*"Ermənistan Qarabağı 30 il işğal altında saxladı. O torpaqlar kimindi? Azərbaycanlı qardaşlarımızın. Azərbaycan öz gücü ilə işğalda olan torpaqlarını azad edib. Biz də əlimizdən gələn dəstəyi verdik və artıq Qarabağ sahiblərinin əlindədir"*

**Rəcəb Tayyib Ərdoğan,**
Türkiyə Prezidenti

KARİKATURA




**Erkən nikah cinayəti...**

## Fransadan Ermənistana "hərbi dəstək" vədi

**Aleksandr Xrolenko,**
rusiyalı hərbi ekspert

Üçtərəfli bəyanata əsasən Fransa Dağlıq Qarabağdakı sülhməramlıların tərkibində yer ala bilməz.

Səh. 6

STATİSTİKA



■ **Elektron təyinat sistemləri vasitəsilə 2020-ci ildə e-qaydada 95 min pensiya, müavinət, təqaüd təyinatı aparılıb. Onlardan 11 mini pensiya, 84 mini müavinət və təqaüd təyinatları olub.**

Xüsusilə postmüharibə dövründə şəhid ailələrinə sosial ödənişlərin (təqaüd, pensiya və ya müavinətin) təyinatı prosesinin operativ icrasında bu e-sistemlər xüsusi önəm kəsb edib. Həmin ailələrin müraciətinə ehtiyac qalmadan müvafiq ödənişlərin avtomatlaşdırılmış mexanizm üzərindən proaktiv təyinatı aparılır.



*Rusiyanın "Sputnik V" peyvəndi "köhnə qitə"ni parçalayır*

Səh. 5

# Avropada vaksin müharibəsi

## XƏBƏR LENTİ

# Baş nazir MEDİA-nın inzibati bina ilə təmin edilməsi barədə tapşırıq verib



**Baş nazir Əli Əsədov ""Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrasının təmin edilməsi barədə" sərəncam imzalayıb. Sərəncama əsasən, baş nazir İqtisadiyyat Nazirliyinə müvafiq tapşırıqlar verib.**

İqtisadiyyat Nazirliyi Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla dövlət qeydiyyatına alındığı gündən MEDİA-nın inzibati bina ilə təmin edilməsi və maddi-texniki təminatı ilə bağlı təkliflərini on beş gün müddətində Nazirlər Kabinetinə təqdim etməli, Agentlik "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən on beş gün müddətində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun balansındakı əmlakın Agentliyin balansına verilməsini təmin edib, Nazirlər Kabinetinə məlumat verməlidir.

Razılaşdırma prosesinin iştirakçıları (əsas və birgə icraçılar) bu Sərəncamın icrası ilə bağlı normayaratma vəzifələrindən irəli gələn məsələlər üzrə (layihə və təkliflərin baxılması, hazırlanması, razılaşdırılması, təqdim edilməsi və s.) müvafiq tədbirlər görüb icra vəziyyəti tələb etdikdə, məlumatları icra üçün ayrılmış müddətin birinci yarısı başa çatanadək Nazirlər Kabinetinə təqdim etməlidir. Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# Bayram çərşənbələri və qeyri-iş günləri açıqlandı



**2021-ci ildə Novruz bayramında qeyri-iş günləri məlum olub. Nazirlər Kabinetinin 2021-ci il üçün Novruz bayramı günlərinin müəyyən edilməsi haqqında" qərarına əsasən, 2021-ci il martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı günləri müəyyən edilib.**

2021-ci il martın 20-21-i həftənin şənbə və bazar günlərinə təsadüf etdiyindən, Əmək Məcəlləsinə əsasən iş və istirahət günlərinin yerləri dəyişdiriləcək. Beləliklə, martın 25-i və 26-sı da qeyri-iş günü olacaq. Novruz bayramı ilə əlaqədar 7 gün ardıcıl (20, 21, 22, 23, 24, 25, 26 mart) iş olmayacaq. Qeyd edək ki, Azərbaycanda bu il Novruz çərşənbələrinin qeyd olunacağı tarixlər də məlumdur.

Bu il ilk - Su çərşənbəsi fevralın 23-nə təsadüf edəcək. Daha sonra martın 2-də Od, 9-da isə Yel çərşənbəsi olacaq. Novruzun ilaxır - Torpaq çərşənbəsi isə martın 16-da qeyd ediləcək.

# DGK xətti ilə büdcə daxilolmaları azalıb



**Bu ilin yanvar ayında Dövlət Gömrük Komitəsinin (DGK) xətti ilə dövlət büdcəsinə 282 736,5 min manat həcmində vergi və rüsumlar daxil olub ki, bu da 2020-ci ilin eyni ayı ilə müqayisədə 15,3%, dekabr ayı ilə müqayisədə isə 19,8% azdır.**

Cari ilin yanvar ayı ərzində dövlət büdcəsinə daxil olan gömrük rüsumlarının həcmi ötən ilin yanvarı ilə müqayisədə 8,6% azalaraq 77 124,7 min manat olub, dekabr ayı ilə müqayisədə isə bu göstərici 25,6% azalıb.

Həmçinin, ötən ay ərzində ƏDV üzrə daxilolmalar 2020-ci ilin yanvar ayının göstəricisi ilə müqayisədə 17,9% azalaraq 193 741,1 min manat (dekabr ayı ilə müqayisədə 15,9% az), aksizlər üzrə 5,9% azalaraq 9 107,1 min manat (dekabr ilə müqayisədə 40,8% az), yol vergisi üzrə daxilolmalar isə 26,4% azalaraq 2 763,6 min manat (dekabr ilə müqayisədə 16,6% az) təşkil edib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

## Gündəm

# Fəaliyyətsiz partiyaların taleyi necə olacaq?

***Ədliyyə Nazirliyinin 2020-ci ilin yekunlarına dair bu günlərdə keçirilmiş onlayn mətbuat konfransında bir çox məsələlərlə yanaşı, ölkədə siyasi partiyaların fəaliyyətinə dair məsələlərə də toxunulub. Bununla bağlı nazirliyin Qeydiyyat və Notariat Baş İdarəsinin rəisi İlqar Məmmədov AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.***

***- İlqar müəllim, istərdik ki, hazırda ölkədə dövlət qeydiyyatına alınmış siyasi partiyaların fəaliyyəti ilə bağlı fikirlərinizi öyrənək. Bu barədə məlumat oxucularımız üçün maraqlı olardı.***

- Bildirmək istərdim ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyev tərəfindən hüquqi dövlət quruculuğu yolunu tutan Azərbaycanda mütərəqqi dünya təcrübəsinə əsaslanaraq sərbəst siyasi fəaliyyət üçün hər cür şərait yaradılıb. Bu da çoxsaylı siyasi partiyaların yaranması ilə müşayiət olunur. Ötən dövrdə müxtəlif yönümlü, məram və məqsədləri ilə fərqlənən 62 siyasi partiyanın, o cümlədən keçən il 7-sinin dövlət qeydiyyatına alınması ölkəmizdə siyasi plüralizmin və çoxpartiyalı sistemin inkişafının əyani təzahürüdür.

Qeyd olunmalıdır ki, siyasi sistemin təkmilləşdirilməsi və siyasi münasibətlərin sağlam zəmində qurulması, partiyalararası dialoqun genişləndirilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin mühüm prioritetlərindən olmaqla, hazırda bu sahədə önəmli islahatlar həyata keçirilir.

Siyasi sistemin inkişafı baxımından 2020-ci il uğurlu il kimi səciyyələndirilməlidir. Belə ki, fevral ayında ölkəmizdə azad və demokratik şəraitdə Milli Məclisə seçkilər keçirilərək çoxpartiyalı yeni parlament formalaşıb, müxtəlif partiyaların nümayəndələri Milli Məclisin və komitələrinin rəhbərliyində təmsil olunublar. Əlbəttə ki, bu, siyasi mədəniyyətin, siyasi qüvvələr arasında əməkdaşlığın növbəti bariz nümunəsidir.

Eyni zamanda, siyasi partiyalar dövlət başçısının təşəbbüsünə müsbət cavab verərək siyasi dialoqa qoşulublar. Artıq deyə bilərik ki, ölkəmizdə demokratik ənənələrin formalaşmasına xidmət edən bu təcrübə şaxələnir.

Prezident Administrasiyasında partiya nümayəndələri ilə mütəmadi görüşlər keçirilərək cəmiyyəti düşündürən məsələlərin açıq şəkildə müzakirə olunması ölkənin hərtərəfli inkişafı baxımından olduqca əhəmiyyətlidir.

Zəfər ili kimi yadda qalan 2020-ci ildə torpaqlarımızın işğaldan azad olunması uğrunda aparılan və xalqımızın Böyük Qələbəsi ilə nəticələnən Vətən müharibəsində siyasi partiyalar bir araya gələrək Azərbaycan Ordusuna, Müzəffər Ali Baş Komandana öz dəstəklərini ifadə edib, ölkəmizdə yaşanan milli və siyasi həmrəyliyi bir daha nümayiş etdiriblər.

Qeyd olunmalıdır ki, siyasi partiyaların tam əksəriyyəti bu gün respublikanın ictimai-siyasi həyatında fəal iştirak edir, dövlət siyasətinin aktual məsələlərinə dair mövqe bildirir, ictimai təşəbbüslərlə çıxış edirlər.

Lakin partiyaların bəziləri uzun müddətdir praktiki olaraq tam fəaliyyətsizdir, siyasi arenada görünmür, qanunvericiliklə üzərinə düşən vəzifələri yerinə yetirmirlər.

Halbuki bu gün Azərbaycanın siyasi palitrasında təmsil olunan bütün partiyaların normal fəaliyyəti üçün geniş imkanlar mövcuddur - qərargahla, texniki avadanlıqla təmin olunurlar, mətbu orqanlara malikdirlər, müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, kütləvi tədbirlər təşkil edir, seçki proseslərinə qatılırlar və s.



### Həmin təşkilatlar üçün daha asan və əlverişli yol fəaliyyətlərinə məhkəmə qaydasında xitam verilməsidir

***- Belə qənaətə gəlmək olar ki, faktiki fəaliyyətsiz olan həmin partiyaların sadəcə adları var, özləri yoxdur. Bu halda onlar nə üçün fəaliyyətlərinə xitam vermirlər. Ümumiyyətlə, belə təşəbbüslə çıxış edən olubmu?***

- Elədir. Artıq uzun müddətdir tam fəaliyyətsiz olan partiyalar var ki, onların adları müvafiq reyestrdə olsa belə, əslində, mövcud deyillər. Buna misal olaraq 1990-cı illərin əvvəllərində yaradılmış Azərbaycan Dirçəliş və Tərəqqi, Müstəqil Azərbaycan, Azərbaycan Milli Dövlətçilik, Azərbaycan Vətənpərvərlər, Azərbaycan Vahid Kommunist partiyalarının adlarını çəkmək olar.

Həmçinin elələri var ki, rəhbərləri, habelə bir çox üzvləri vəfat edib və ya partiya sıralarını tərk ediblər. Yaxud partiyanın üzvü kimi qeyd olunan şəxslər bundan məlumatsızdırlar, eləcə də həmin təşkilatlar qeydiyyata alınmış hüquqi ünvanlarda mövcud deyillər.

Partiyaların fəaliyyəti "Siyasi partiyalar haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", habelə digər qanunlarla tənzimlənir və qanunvericilikdə onların hüquq və vəzifələri təsbit olunub.

Təəssüf ki, qeyd olunan partiyalar qanunvericilikdə nəzərdə tutulmuş vəzifələri icra etmirlər: qurultaylar keçirmir, idarəetmə orqanlarını formalaşdırmır, maliyyə hesabatlarını vaxtında və ya ümumiyyətlə, təqdim etmir, digər nöqsanlara yol verməklə qanunvericiliyin tələblərini pozmuş olurlar.

Bununla bağlı nazirlik tərəfindən rəsmi müraciətlər edilib və qanunvericiliyin tələblərinə uyğun tədbirlərin görülməsi xahiş olunub. Lakin həmin partiyalar tərəfindən heç bir addım atılmayıb. Fürsətdən istifadə edib belə partiyalara bir daha müraciət edərək fəaliyyətlərini bərpa etmək istəyənlərə zəruri hüquqi yardım göstərməyə Ədliyyə Nazirliyinin hazır olduğunu bildirirəm.

Partiyaların öz fəaliyyətlərinə xitam verməklə bağlı sualınıza gəlincə isə, bildirməliyəm ki, ləğvetmə proseduru mürəkkəb və uzun sürən bir proses olmaqla qanunvericilikdə öz əksini tapıb. Belə ki, bunun üçün partiyanın qurultayı keçirilməli, ləğvetmə komissiyası yaradılmalıdır. Partiyanın ləğvi barədə elan verilməli, ləğvetmə ilə bağlı müvafiq, o cümlədən maliyyə xarakterli sənədlər hazırlanmalı, əmlakları barədə qərar qəbul edilməli və s. tədbirlər görülməlidir. Bununla bağlı qanunvericilikdə konkret müddətlər müəyyən edilib. Ləğvetmə prosesinin ümumi müddəti bir ildən çox çəkdikdə isə, o, yenidən başlanır.

Ona görə də partiyanın ləğvi ilə bağlı qərar qəbul etmək və bununla əlaqədar hər hansı addım atmaq iqtidarında olmadıqlarından həmin təşkilatlar üçün daha asan və əlverişli yol fəaliyyətlərinə məhkəmə qaydasında xitam verilməsidir.

Bu səbəbdən artıq bəzi partiyaların üzvləri Ədliyyə Nazirliyinə müraciət edərək ləğvetmə prosesini nazirliyin təşəbbüsü əsasında məhkəmə yolu ilə həyata keçirmək niyyətində olduqlarını bildiriblər.

Şübhəsiz ki, əsas istəyimiz və məqsədimiz cəmiyyətimizdə vətəndaş həmrəyliyinin və milli birliyin möhkəmləndirilməsinə, bütövlükdə Vətənimizin hərtərəfli tərəqqisinə və dirçəlişinə öz töhfələrini verən siyasi qüvvələrin fəaliyyətinə dəstək göstərməkdir. Bununla bağlı Ədliyyə Nazirliyi tərəfindən qanunvericiliyə uyğun tədbirlər davam etdiriləcək.

## Aktual

# Qarabağda yaşanan ziddiyyətli məqamlar

***Son günlər Ermənistan mətbuatında bir-birinin ardınca Dağlıq Qarabağla bağlı xeyli dərəcədə maraqlı nüansları ilə diqqət çəkən məlumatlar yayılmaqdadır. Belə xəbərlər arasında ikisi xüsusi vurğulanmalıdır. Artıq Ermənistan çağırışçıları hərbi xidmət üçün Dağlıq Qarabağa göndərilməyəcək. Xatırlatmaq yerinə düşər ki, hafta.az bir neçə dəfə müharibədəki məğlubiyyət və çoxsaylı itkilərdən sonra erməni valideynlərin öz uşaqlarını Dağlıq Qarabağa göndərmək istəmədikləri, hətta çoxsaylı etiraz aksiyaları keçirdiklərinə dair məlumat yaymışdı.***



Artıq bu etirazlar və Azərbaycanın qətiyyətli iradəsi öz bəhrəsini verib. İndi əsas məsələlərdən biri Dağlıq Qarabağın Rusiya sülhməramlılarının nəzarətindəki ərazilərində qalan erməni silahlı qalıqlarının ləğvi və təmizlənməsidir. Digər diqqət çəkən xəbər isə fransalı jurnalistlərin Laçın dəhlizindən Qarabağa buraxılmaması, bunun üçün Azərbaycandan icazə almağın vacibliyinin bildirilməsinə dairdir. Təbii ki, bu məsələdə də yenə rəsmi Bakının siyasi iradəsi öz sözünü deyir. Lakin separatçı rejimin qalıqları yenə də «varlıqları»nı göstərmək üçün təxribat mahiyyəti daşıyan bəyanatlarından əl çəkmirlər. Qondarma qurumun «XİN» təmsilçisi bildirir ki, Qarabağa gəlmək istəyən xarici ölkə vətəndaşları ilk növbədə separatçı rejimə müraciət etməli, daha sonra isə İrəvanda akreditasiyadan keçməlidirlər. Bu proseduru yerinə yetirənlər heç bir maneə ilə üzləşməyəcəklər. Lakin fransalı jurnalistlərlə bağlı məsələdə erməni mətbuatı iddia edirdi ki, artıq İrəvanla Bakı arasında xarici vətəndaşların Qarabağa yalnız Azərbaycanın icazəsi ilə səfər edə biləcəklərinə dair razılıq əldə olunub.

Bütün bu məsələlər yenə də cavabları açıq qalmış suallar yaradır. Bəs görəsən, indi nələr baş verir?

■ **Politoloq Qabil Hüseynli baş verənləri hafta.az-a şərhində bildirir ki, Qərb dövlətləri meydanı yenidən qızışdırmaqdadırlar. Son günlər həmsədr dövlətlərin ATƏT-in Minsk Qrupunun səlahiyyətlərini bərpa etməyə çalışması onu göstərir ki, Rusiyanın özü də əvvəl göstərdiyi mövqelərdən geri çəkilməyə başlayıb.**



**Qabil Hüseynli,**
politoloq

"Dünənə qədər razılaşdırılmışdı ki, bir qrup ermənin Azərbaycanın daxilində qondarma respublikası olmayacaq. İndi isə onun "xarici işlər nazirliyi"ndən icazəalınma məsələsini ortaya atıblar. Qarabağda belə bir səlahiyyətə malik olan qurum yoxdur və ola da bilməz. Digər tərəfdən, Dağlıq Qarabağda status məsələsi ümumiyyətlə yoxdur. Qarabağ işğaladan azad olunub və bəzi rayonlarda qalan silahlı ermənilər heç bir halda ölkə daxilində respublika iddiasına düşə bilməz. O cümlədən zaman-zaman qondarma respublika deyilən qurumu Ermənistanın özü belə tanımayıbsa, onlar hansı haqla xarici işlər nazirliyi, əsgəri qüvvələrin saxlanması və sair cəfəng çıxışlar edirlər?! Azərbaycan Qarabağda status məsələsinin qapandığını dəfələrlə bəyan etdiyi halda, belə məsələlərin önə çəkilməsi bölgədə vəziyyətin gərginləşməsinə yönəlib. Görünən odur ki, müharibədən sonra yeni reallıqlar yaranıb".

Q.Hüseynli bildirir ki, buna görə də hazırda 3-cü Qarabağ savaşından və sülhməramlı qüvvələrin həmin bölgədə qeyri-adekvat hərəkətlərindən danışılır. Politoloq hesab edir ki, Qarabağda cərəyan edən ziddiyyətləri Minsk Qrupunda olan həmsədr dövlətləri yaradır. Bölgədə proseslər beynəlxalq hüququn prinsiplərinə, BMT-nin 4 qətnaməsinin tələblərinə əsaslanmadıqca Qarabağda vəziyyət getdikcə gərginləşəcək.

"Ortada Ermənistanın işğal faktı və buna qarşı qəbul olunan beynəlxalq sənədlər olub. O sənədlərin yerinə yetirilməsi üçün ATƏT-in Minsk Qrupu başda olmaqla, BMT və digər beynəlxalq qurumlar lazımi işləri görə bilməyiblər. Məhz Azərbaycan əsgəri onların əvəzindən bu işin öhdəsindən gəlib və həmin qətnamələri beynəlxalq hüquq müstəvisində yerinə yetirib. İndi revanşist qüvvələrin, erməni diasporunun xristian təəssübkeşlərinin meydanı yenidən qızışdırması hərbi qarşıdurmaya, bölgəni yeni müharibəyə sürükləməyə yönəlmiş addımlardır. Bundan nə Ermənistan, nə də onu müdafiə edən qüvvələr heç də xeyir götürməyəcəklər". Politoloq 44 günlük müharibədə əldə olunan zəfər və bu proseslərin diplomatik müstəvidə həll olunması ilə bağlı əldə edilən razılığa əsaslanaraq bildirib: "Ermənistan və onun havadarları Azərbaycanın haqq işinin, ərazi bütövlüyünün kölgə altına salınması ilə bağlı cəhdləri müşahidə olunur. Beynəlxlaq ictimai rəy, xüsusilə demokratiya ilə öyünən Qərb dünyası həddən artıq həyasızlaşıb.

Bunlar Azərbaycanın öz torpaqlarını azad etməsinə və ərazi bütövlüyünü təmin etmək istiqamətindəki hərəkətlərinə "qiyamçı qüvvələrin genosid törətməsi" kimi biabırçı don geyindirməyə çalışırlar. Adam dəhşətə gəlir. Necə ola bilər ki, dünyada demokratiya və insan haqlarından dəm vuran ölkələr, başqa xalqların demokratiya dəyərlərinə bu qədər barmaqarası yanaşırlar. Görünən odur ki, Azərbaycan Qarabağı tam təmizləmək üçün xeyli mücadilə aparmalı olacaq".

> *"Bölgədəki problemləri Minsk Qrupunda olan həmsədr dövlətlər yaradır*

Politoloq bildirir ki, Minsk qrupunda olan Rusiya Cənubi Qafqazı nəzarətə almaq niyyətindədir. Lakin unudur ki, dünyanın köhnə mənzərəsi dəyişib. "Rusiya, artıq regionda müharibə etmək gücündə deyil. Moskva öz hərərkətləri bölgədə gərginlik yaratmaqla kifayətlənəcək. Bölgədə Türkiyə var, bölgə ilə Pakisatan maraqlanır. Bölgədə eyni zamanda bizim addımlarımızı müdafiə edən İtaliya, İngiltərə kimi Avropa dövlətləri var. Belə bir şəraitdə Rusiya və Fransa kimi ortalığı qarışdıran ölkələr bölgədə sona qədər hərəkət edə bilməyəcəklər".

✍ *Tahirə Qafarlı*

Müsahib

# Qanunların icra olunmamasının səbəbkarı məmurlardır

**Milli Məclisdə yeni mexanizm formalaşdırılır. Qanunların icra mexanizmi ilə bağlı Prezidentin verdiyi tövsiyələr ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Aparılan islahatların ölkənin ictimai-siyasi durumunda hansı nəfəsliyə səbəb ola biləcəyi isə birmənalı qarşılanmır. Vəzifəli məmurların öz postlarını buraxmaq istəməməsi, ölkədə hərcmərclik yaratmaqda maraqlı olmaları ilə bağlı ehtimallar səslənir. Sabiq deputat, hüquqşünas Çingiz Qənizadə "Həftə içi"nə verdiyi müsahibədə bir çox məqamlara aydınlıq gətirib.**

***- Çingiz müəllim, Prezidentin tapşırıq və tövsiyəsinə uyğun olaraq, yaxın vaxtlarda Milli Məclisin nəzdində Qanunların icrasına nəzarət qrupu yaradılacaq. Necə hesab edirsiniz, bu qrupun hansı əhəmiyyəti olacaq?***

### "İndi rüşvət və korrupsiyaya qarşı da mübarizə gedir"

- Hər bir addımında olduğu kimi, cənab Prezident bu məsələ ilə bağlı haqlı qərar verib. Mən Milli Məclisin sabiq deputatı kimi qeyd edim ki, qəbul edilən qanunların bir çoxu kağız üzərində qalırdı. Bu günə qədər də belədir. İcra mexanizmi yox idi və qanunlar icra olunmurdu. Adicə bir misal deyim: biz bir çox rayonların şəhər mərkəzinin inzibati ərazisinin artırılması ilə bağlı Milli Məclisdə sənədlərə baxdıq və rayonun şəhər mərkəzinin artırılması üçün şəhərətrafı bəzi kənd torpaqlarının şəhərin ərazisinə verilməsi ilə bağlı Milli Məclisin qərarı oldu. Üstündən 8-9 il keçsə də, bu qanun hələ də icra olunmayıb. Qanunların icrasına nəzarət qrupunun yaradılması ona görə əhəmiyyətlidir ki, insanlar artıq yeni-yeni evlər tikir və şəhərin ərazisi genişlənir. Qanun icra olunmadığına görə, hər şey köhnə qaydada qalıb. Bu cür icrasız qalan onlarca qanun var.

### Qanun mütləq icra olunmalıdır

***- Qanunların icrasız qalmasına səbəb nədir?***

- Qanunların icra olunmamasının səbəbkarı məmurlardır. Onlar tərəfindən bir laqeydlik, saymazlıq, mənəmmənəmlik var idi. Cənab Prezidentin son dövrlərdə apardığı kadr islahatları bu cür özbaşınalığı aradan qaldırıb. İndi rüşvət və korrupsiyaya qarşı mübarizə gedir, daha gənc və savadlı kadrların təyinatı aparılır. Bu özünü doğruldacaq. Qəbul olunmuş qanunların icrasına nəzarət edən bir qurum olmalıdır ki, lazım gələndə qanunverici orqan özü də ora sorğu verməklə bu qanunların niyə icra olunmaması ilə bağlı arayış əldə edə bilsin. İndiki vəziyyətdə kim buna cavabdehlik daşıyır, heç kim tanımır. Ona görə də bəzi qəbul olunmuş qanunlar ilk baxışda o qədər ciddi görünməsə də, onun təhlilinə baş vuranda görürsən ki, mütləq icra olunmalıdır. Qanunlar icra olunmadığına görə gündəlik həyatımıza, cəmiyyətə öz mənfi təsirini göstərir. Ona görə nəzarət qrupunun yaradılmasını müsbət dəyərləndirirəm və belə hesab edirəm ki, bu, ölkədə gedən bütün islahatların tərkib hissəsidir. İslahatlar tək kadr sahəsində deyil, həm də idarəçilikdə, idarəçiliyin yeni formalarının tətbiqində gedir. Ümid edirəm ki, bu, yaxşılığa doğrudur.

### Azərbaycanda ictimai nəzarət kifayət qədər deyil

***- Belə fikirlər var ki, həbslər korrupsiyanın aradan qaldırılmasında çıxış yolu deyil. O zaman vəzifəyə təyin olunan şəxsə vəzifənin varlanmaq üçün vasitə olmadığını düzgün anlatmaq üçün daha hansı qəti tədbirlər görülməlidir?***

- 2011-2012-ci illər idi. Cənab Prezident, artıq ictimai nəzarətin vacibliyini bildirdi və eyni zamanda, rüşvət və korrupsiyaya qarşı mübarizəyə başlandığını qeyd elədi. Əslində, ona qədər də belə bir mübarizə aparılırdı və sonradan da sərt addımlar atılmağa başlandı, amma nə baş verdi? Cənab Prezidentin dediyi fikirlər, atdığı addımlar bəzi adamların vəzifədən kənarlaşdırılması, hansısa həbslər başqalarına dərs oldumu? Xeyr! Elə son 2020-ci ildə beş icra başçısı həbs olundu. Bu günlərdə keçmiş nazirlərdən biri, eləcə də "Baku Steel Company"nin sədri həbs olundu. Hansı ki, 10 illərdir Azərbaycan iqtisadiyyatına, dövlətinə zərər vurmaqla, Azərbaycan sahibkarlarını sıxışdırmaqla məşğul idi. Onlar zorakılıq, qoçuluq etsələr də, qarşısı alınmırdı, çünki arxasında ayrı-ayrı məmurlar dururdu. Bu cür yanaşma tək inzibati metodlarla bitməməli, həm də ictimai nəzarət funksiyası yerinə yetirilməlidir. Azərbaycanda ictimai nəzarət kifayət qədər deyil. Ayrı-ayrı qurumların nəzdində yaradılan ictimai şuraların mexanizmi özünü kifayət qədər doğrultmadı. Ayrı-ayrı məmurlar özlərinə yaxın olan adamların vasitəsilə o nazirliklərdə, icra orqanlarında ictimai şuralar yaratdılar. Onlar da təbii ki, həmin qurumlarda baş verən pozuntular haqqında məlumatlar vermir və verməyəcəklər. Düzdür, millət vəkili Azay Quliyevin təklifi ilə ictimai şuraların yaradılması ilə bağlı qanun qəbul olundu, amma bu yetərlidirmi, işləkdirmi? Xeyr. Cənab Prezident də hər dəfə çıxışında deyir ki, ictimai nəzarət olmalıdır. İctimai nəzarət bu gün kifayət qədər söz sahibi deyil. Onun qaldırdığı məsələləri eşidən yoxdur. Cənab Prezidentin özünün yanında 12 nəfərdən ibarət bir ictimai şura yaradıla bilər. Səhv etmirəmsə, bu, Rusiya təcrübəsində var. İndi bizdə ictimaiyyətlə əlaqədar işləyən müəyyən təşkilatlar - strateji araşdırma təşkilatları yaranıb. Zahid Orucun rəhbərlik etdiyi sosial tədqiqatlarla məşğul olan qurum da var. Bu da ictimaiyyət üçün kifayət qədər açıq deyil. Hesab edirəm ki, ictimai nəzarət funksiyasının öz mexanizminin gücünün, təsirinin artırılmasını düşünmək lazımdır. Həbs olunan köhnə, yaxud yeni kadrlar başqalarına bir dərs olmalıdır. Bəzi adamlar cəzasız qalacaqlarına arxayın olaraq bu yoldan çəkinmirlər. Arxalarında dayanan hansısa gözəgörünməz qüvvə onları qoruyur. Görünən budur ki, cənab Prezident, artıq bu qara əlləri yığışdırmaqla məşğuldur və hamının konstitusiya qarşısında bərabərliyini təmin edir.



Çingiz Qənizadə,
sabiq deputat, hüquqşünas

Eyni zamanda, qanunu pozan adamlara qarşı da bu cür sərt inzibati metodların tətbiqinə razılıq verir. Son həbslər onu göstərir ki, proses davam edəcək və elələmidir. Kimlər ki, dövlətdən oğurluq ediblər, dövlətin vəsaitini mənimsəyiblər, aydınlaşdırılıb dövlətə qaytarılmalıdır. Dövlətimiz elə bir ərəfədədir ki, Qarabağ torpaqlarını azad etdikdən sonra, bu ərazilərin dirçəldilməsi üçün böyük maliyyə ehtiyatlarına ehtiyac yaranıb. Belə olduğu halda ayrı-ayrı məmurlar 100 milyonların mənimsəyərək çəkilib sakitcə kənarda dura bilməz. Bu, cəmiyyət tərəfindən qəbul olunmayacaq. Ona görə də cənab Prezidentin rüşvət və korrupsiyaya qarşı mübarizə sahəsində gördüyü tədbirləri, eyni zamanda inzibati tədbirlər hamısı cəmiyyət tərəfindən müsbət dəyərləndirilir.

### İctimai nəzarəti həyata keçirən adamlar ədalətli olmalıdır

***- İctimai Nəzarət Koalisiyasının rəhbəri Rasim Məmmədov mətbuata çıxaraq, ölkədə ictimai nəzarətin güclü olduğunu deyir...***

- İctimai nəzarət haqqında qanuna görə hər bir yerli və ali icra hakimiyyəti orqanlarının nəzdində yerli özünüidarəetmə orqanlarında ictimai şuralar yaradılmalıdır və onların hüquq və vəzifələri bu qanunda göstərilib. Eyni zamanda, bu Şuradan kənarda olan qeyri-hökumət təşkilatları, müxtəlif sektorlarla bağlı yaradılan hüquq müdafiə təşkilatlarının hamısı baş verən hüquq, qanun pozuntularını ictimailəşdirib, lazım gələrsə, cənab Prezidentə, eləcə də digər qurumların rəhbərlərinə məktubla müraciət edə bilər, bu barədə mətbuatda ədalətli və obyektiv fikirlərini çatdıra bilər. Rasim Məmmədov deyirsə ki, ictimai nəzarət güclüdür, o zaman birinci növbədə onun özü barədə mətbuatda gedən yazılara diqqət çəkmək lazımdır. Rasim Məmmədovla bağlı məlumatlar yayılmışdı ki, o beş dəfə həbs olunub. Beş dəfə həbs olunub çıxan adam ictimai nəzarətə necə obyektiv yanaşa bilər. İctimai nəzarəti həyata keçirən adamlar ədalətli olmalıdır, dövlətinə, xalqına biganə olmamalıdır. Baş verən qanunsuzluqlara göz yummamalıdır. Bu gün Azərbaycanda bu funksiyanı həyata keçirən elə hüquq-müdafiə təşkilatları var ki, qanunsuz həbslər, saxlamalar, işdən çıxarılmalarla məşğuldurlar.

> *Qəbul olunmuş qanunların icrasına nəzarət edən bir qurum olmalıdır*

### Bu əllər kəsilməlidir

***- Çingiz müəllim, siz də qeyd etdiniz ki, Prezident İlham Əliyevin məmurlarla bağlı sonuncu çıxışı, eləcə də nazir və bəzi yüksək vəzifəli şəxslərin həbsi yuxarıdan islahatların aparılması əhali arasında ciddi reaksiya doğurub. Bir çox siyasilər hesab edir ki, məhz rus sülhməramlıları Qarabağa gələndən sonra "5-ci kolon" aktivləşib. Bəzi məmurların dövlət üçün təhlükə yaratdığı vurğulanır.***

- Əvvəla, sülhməramlıların Qarabağa gəlişi, fəaliyyəti ilə bağlı bizi qane etməyən məqamlar var. Biz bununla bağlı mətbuatda öz fikirlərimizi bildirir və deyirik ki, onlar öz səlahiyyətlərindən kənar işlər görürlər.

44 günlük müharibədə, təbiidir ki, Azərbaycan Ordusunun uğuru bəzi adamları narahat edib. Mən tam məsuliyyətimlə deyirəm ki, ayrı-ayrı qurumlar, təşkilatlar, partiyalar var idi ki, onlar bizim bu uğurlu qələbəmizi arzulamırdılar. Hesab edirdilər ki, müəyyən insan tələfatı ilə ölkədə ictimai-siyasi proseslər pozula və hakimiyyətə qarşı əllərində daha böyük əsaslar ola bilər. Cənab Prezidentin uzaqgörən, ağıllı, qətiyyətli siyasi addımları bizə bu qələbəni yaxınlaşdırdı və bu cür adamların deməyə sözü olmadı. Yenə də şəhid ailələrini, qazilərimizi qıcıqlandırmaqla ucuz yollarla bəhanələr axtaranlar var. Bunlar o qədər də təhlükəli deyildir. Dövlətdən, hakimiyyətdən incik düşən və külli miqdarda kapitala malik olan insanlar daha təhlükəlidirlər. Onlar ayrı-ayrı qrupları, ayrı-ayrı şəxsləri maliyyələşdirməklə hansısa çirkin planlarını həyata keçirmək istəyində, arzusunda ola bilərlər. Görünür, beləleri var. Mətbuatda və cəmiyyətdə gedən müzakirələrin nə qədər doğru olub-olmamasından asılı olmayaraq, əgər bunun 3-5 faizində həqiqət varsa, bax, bu əllər kəsilməlidir. İndiki həssas dönəmdə ictimai-siyasi sabitlik çox vacibdir.

Bizim Qarabağda görüləcək işlərimiz çoxdur. Bizə sabitlik həmişəkindən daha çox lazımdır. Bir məsələni də qeyd edim ki, Prezident Admnistrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin bu vəzifəyə təyinatından sonra, Azərbaycanda ictimai-siyasi təşkilatlarla aparılmış iş effektli oldu. Müharibə dövründə bir partiyanı çıxmaq şərti ilə 50-dək partiya Ali Baş Komandanın ətrafında birləşdi. Bu uğurlu işi davam etdirmək lazımdır.

### Azərbaycanda heç kim dövlət çevrilişi edə bilməz

***- "5-ci kolon"un Azərbaycanda çevriliş etmək niyyətində olduğu barədə səslənən fikirlər, artıq deputatlar səviyyəsində səsləndirilir. Vəziyyət nə dərəcədə ciddidir?***

- Bu barədə millət vəkili Vahid Əhmədovun fikirlərini oxumuşam və buna hörmətlə yanaşıram. Mənim fikrim belədir ki, bu gün Azərbaycanda heç kim dövlət çevrilişi edə bilməz. Əvvəla, dövlət, dövlətin güc strukturları, hüquq-mühafizə orqanları və eyni zamanda cənab Prezidentə dəstək verən ölkə əhalisinin böyük əksəriyyəti buna imkan verməz. Bu gün Azərbaycanda hansısa çevriliş etmək xülyasına düşən adamların psixi pozuntusu ola bilər. Bu, real olmayan bir məsələdir. Əhalinin böyük hissəsi cənab Prezidentin ətrafındadır və Azərbaycan dövlətinin ictimai-siyasi sabitliyini qoruyan orqanları dövlətin və Ali Baş Komandanın yanındadır. O baxımdan kimlərsə belə fikirləri ortaya atıb, hətta xəyalından belə keçirirsə, o insanların psixi pozuntusu var. Bu, Azərbaycanda mümkün deyildir.

### "Onların dövlətdən narazı düşməsi daha təhlükəlidir"

***- Bir az əvvəl müəyyən maliyyə kapitalı olan vəzifədən getmiş narazı məmurları "indiki şəraitdə nəsə hazırlaya bilərlər" deyə, ən təhlükəli məqam kimi qeyd etdiniz. Nəyi nəzərdə tuturdunuz?***

- Təbii, bu adamların çoxu elə bilirlər ki, ataları onları ona görə dünyaya gətirib ki, həmişə vəzifədə olsunlar, çalıb-çapsınlar. Unudurlar ki, vəzifə də müvəqqətidir, səlahiyyətlər də... Bir misal çəkim: son parlament seçkilərindən sonra Milli Məclisdə 30-40 yer boşaldıldı. O cümlədən dairədə nəticələr ləğv olunduğuna görə, mən də parlamentə düşə bilmədim.

Bu parlamentə düşməyən 38 nəfərin içində Çingiz Qənizadədən başqa hansı birini Azərbaycan dövlətinin, xalqının, Prezidentinin yanında olduğunu gördünüz?! Statistik araşdırma aparsalar görəcəklər ki, daim müxtəlif məsələlərlə bağlı telekanallarda çıxışlar etmişəm, amma o 40 nəfərin 38-i ortada yoxdur.

Deməli, onlar hesab edirlər ki, vəzifədə varamsa, dövlətin yanında olub çıxışlar edə bilərəm, vəzifədən çıxdımsa, nə işimə qalıb. O cümlədən, nazirlər də, icra başçıları, komitə sədrləri də o cür düşünürlər. Elə vəzifələr var ki, burada rüşvət və korrupsiya ilə məşğul olan 1-ci, 3-cü, 5-ci şəxslər milyonlar yığıblar. Əsassız yerə olsa belə, bunların dövlətdən narazı düşməsi daha təhlükəlidir. Ona görə də hər bir fəaliyyətə hüquqi qiymət verilməsinin tərəfdarıyam. Ölkə ictimaiyyəti də bunu istəyir, cənab Prezident də. Bu cür həbslər ardıcıl olaraq gedəcək və müəyyən adamlar həbs olunacaqlar.

✍ *Tahirə Qafarlı*

---

# PREZİDENTƏ YAZIRLAR



**Sədi Hacıyev, Sumqayıt:**

- Hörmətli cənab Prezident.

Siz xalqımızın mənliyini, ləyaqətini özünə qaytaran qəhrəman, əziz Prezidentimizsiniz. Hazırkı vaxtda dünyada yeni tarix yazan yeganə Prezidentsiniz. Bu tarix dünya tarixində Sizin adınızla əbədiləşəcəkdir.

Siz dövlətçiliyi, tarixi, yurdu olmayan, yer üzündə insanlığa ləkə olan cinayətkar bir rejimə tarix dərsi, əxlaq dərsi verdiniz, onlara layiq olduqları yeri göstərdiniz.

Qəhrəman Prezidentimiz, Siz Vətən Müharibəsi zamanı sübut etdiniz ki, tarixi məqamlardan vaxtında istifadə etməyi bacarırsınız.

Ali Baş Komandan kimi Qələbə sevincini xalqımıza yaşatdınız, bununla yanaşı dünyaca məşhur diplomatlara, jurnalistlərə təmkinli cavablarınızla ürəyimizi dağa döndərdiniz. Siz iki cəbhənin - müharibə və diplomatiya cəbhəsinin qəhrəmanısınız.

Hörmətli Prezidentimiz, Siz bizi doğma torpaqlarımıza qaytardınız, xalq-ordu-dövlət birliyini qurdunuz və ali məqsədinizə nail oldunuz.

Biz Sizi - xalqımızın Qəhrəman oğlunu, yenilikçi, islahatçı, mahir diplomat, böyük Azərbaycanlı, vətənpərvər, zəngin təcrübəyə malik dövlət başçısını çox sevirik. Siz hərtərəfli fəaliyyətinizlə Azərbaycana çoxlu dost ölkələr qazandırmısınız. Bütün bunlara görə çox sağ olun, dünya durduqca var olun. Biz Sizinlə fəxr edirik.

---

**Ömer Emre Kanat, Batman, Türkiyə**

- Hörmətli cənab Prezident.

Sizi və bütün Azərbaycan xalqını Qarabağda zəfər qazanmağınız münasibətilə təbrik edir, Vətən Müharibəsində şəhidlik zirvəsinə ucalanlara, canını fəda edənlərə Allahdan rəhmət, ailələrinə səbr, qazilərimizə isə şəfa arzulayıram.

Sizin güclü, müdrik siyasətiniz, qətiyyətiniz və dik duruşunuz hər bir Azərbaycan və Türkiyə vətəndaşının qəlbini fərəhləndirir. Məhz Sizin sayənizdə Qarabağ bu gün azaddır.

Müharibə dövründə qəlbimiz və dualarımız hər zaman Azərbaycan xalqı və qəhrəman ordunuzla idi. Sizin xalqa müraciətlərinizi biz də həyəcan və sevinc göz yaşları ilə izləyirdik.

Mənim atam 2007-ci ildə Bakı şəhərində özəl şirkətlərin birində işlədiyinə görə uşaqlıq illərim Bakıda keçib. Dostlarımı, yaşadığım məhəlləni, gəzdiyim parkları, Dənizkənarı Bulvarı heç unutmadım. Azərbaycanda yaşadığım 4 il mənim hafizəmdən heç vaxt silinməyəcək, həyatımın ən gözəl, xoşbəxt günləri kimi qalacaq. Bəlkə buna görə də, Azərbaycanın Qələbəsi mənim üçün bu qədər dəyərli, anlamlıdır. Sevincimi ifadə etmək üçün söz tapmağa da çətinlik çəkirəm.

Müdrik Heydər Əliyevin "İki dövlət, tək millət" sözləri hamımız üçün bir örnək oldu. Bu sözlərin aliliyini, qardaş ölkələrin hər zaman bir-birinizə təmənnasız kömək etməyə hazır olduqlarını bütün dünyaya bir daha sübut etdiyinizə görə Sizə və Rəcəb Tayyib Ərdoğana təşəkkür edirik.

**Sizə və ailə üzvlərinizə cansağlığı və uzun ömür diləyirəm. Yaşasın Müzəffər Ali Baş Komandan! Yaşasın Azərbaycan əsgəri! Qarabağ Azərbaycandır!**

---

**Rüfanə Niftəliyeva, Bakı:**

- Hörmətli cənab Prezident,

Vətən müharibəsində qazandığımız möhtəşəm qələbə münasibətilə Sizi ürəkdən təbrik edir, müzəffər Ordumuzun sərkərdəsi kimi Sizə və qəhrəmanlıqları ilə dastan yazan bütün əsgər və zabitlərimizə dərin minnətdarlığımı bildirirəm. Sizinlə fəxr edirik!

Biz bu gün başı dik və qürurluyuqsa, bu, Sizin və qüdrətli Ordumuzun sayəsindədir. Allaha şükürlər olsun ki, işğal altındakı torpaqlarımız geri qaytarıldı, ölkəmizin ərazi bütövlüyü bərpa olundu.

Bir zəngilanlı olaraq demək istəyirəm ki, doğma yurdumuza ayaq basacağım günü çox səbirsizliklə gözləyirəm. İnanıram ki, Siz Qarabağımızı yaxın gələcəkdə yenidən cənnətə, gülüstana çevirəcəksiniz. Biz də tezliklə öz elimizə, obamıza qayıdıb xoşbəxt və firavan həyat yaşayacağıq. Allahdan bütün şəhidlərimizə rəhmət, valideynlərinə isə səbir diləyirəm. Qazilərimizin isə tezliklə sağalmalarını arzu edirəm.

---

**Ramil Yahyayev, Şirvan:**

- Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan.

Mən bir gənc olaraq çox sevinirəm ki, Azərbaycan Respublikasına Sizin kimi müdrik, uzaqgörən siyasi xadim rəhbərlik edir. Sizin rəhbərliyinizlə ölkəmizdə yüksək intellektli və geniş dünyagörüşünə malik gənc nəsil formalaşır. Hər bir Azərbaycan gənci Sizə inanır və güvənir.

Sizin rəhbərliyiniz və Azərbaycan Ordusunun şücaəti nəticəsində 30 il işğal altında qalan torpaqlarımız düşmən tapdağından azad olundu. Doğma Qarabağ torpaqlarımızın azad olunması və qazandığımız möhtəşəm qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm. Bu böyük sevinci bizə Siz yaşatdınız, bu xoşbəxtliyi bizə Siz bəxş etdiniz. Sizin yürütdüyünüz siyasət biz gənclərə örnəkdir.

**Yaşasın Ali Baş Komandan! Yaşasın İlham Əliyev!**

---

**Rəna Hacızadə, Sabirabad, Azərbaycan:**

- Müzəffər Ali Baş Komandan.

Bu məktubu yazmaqla Sizə ürək sözlərimi bildirmək istəyirəm. Allah Sizə ailənizlə birlikdə uzun ömür, cansağlığı versin!

Cənab Prezident, çox sağ olun ki, bizim doğma torpaqlarımızı geri qaytardınız, bununla da xalqımızı qürurlandırdınız, şərəfləndirdiniz. Bu möhtəşəm qələbəyə görə şəhidlərimizə, qazilərimizə, əsgərlərimizə və Sizə borcluyuq. Siz Azərbaycan dövlətinin gücünü bütün dünyaya göstərdiniz. Sizin rəhbərliyiniz altında Müzəffər Ordumuzun qazandığı bu əzəmətli Qələbədən yüz illər boyu böyük coşqu ilə bəhs ediləcəkdir.

Allahdan bu haqq savaşında canından keçən bütün şəhidlərimizə rəhmət, valideynlərinə isə səbr diləyirəm. Allah Sizin könlünüzdəki bütün arzuları gerçəkləşdirsin. Allah Sizin kölgənizi başımızın üzərindən əskik etməsin, cənab Prezident!

---

**Məzahir Əliyev, Bakı:**

- Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan.

Bu məktubu yazarkən düşüncələrim məni 44 günlük Vətən Müharibəsinin ağrılı-acılı, həyəcanlı və sevincli günlərinə apardı. O günlərdə Sizin müraciətlərinizi qəlbi Qarabağla, yurd sevgisi ilə döyünən hər bir azərbaycanlı böyük səbirsizliklə gözləyirdi. Çünki Sizin hər müraciətinizdə Qələbə müjdəsi var idi, hər cümlənizdə Azərbaycan tarixi var idi. Siz xalqa təkcə qələbə xəbəri vermirdiniz, həm də Ermənistanın təcavüzkar mahiyyətini açırdınız, Qarabağ haqqında tarixi həqiqətləri mükəmməl və dolğun şəkildə dilə gətirirdiniz. Qəlbimiz qürur hissi ilə döyünürdü. Siz bu müraciətlərlə və dünyanın müxtəlif media orqanlarına verdiyiniz dəyərli müsahibələrlə xalqın Sizə sevgisini və inamını daha da artırdınız, xalqın gözündə daha da ucaldınız. Siyasi iradəniz, əzmkarlığınız və mərdliyiniz ilə Azərbaycanın qələbəsini təmin etdiniz.

Bu il və növbəti illərdə bizi işğaldan azad edilmiş dədə-baba torpaqlarımızda quruculuq işləri gözləyir. Bu işlərdə mən də bir vətəndaş olaraq iştirak etməyə, istənilən tapşırığı vicdanla yerinə yetirməyə hər zaman hazıram. Ulu Tanrı bu yolda köməyiniz olsun!

# Erkən nikahlar

## Layihə

***Bir neçə gün öncə Gürcüstanda 11 yaşlı azərbaycanlı qızın 15 yaşlı dayısıoğluna nişanlanması barədə məlumatların yayılması erkən nikah problemini yenidən cəmiyyətin gündəminə gətirib. Düzdür, hadisənin baş verdiyi Soğanlı kəndində yaşayan ailə bu məlumatı təkzib edərək, israrla qızlarına "ad günü" keçirdiklərini bildirsələr də, sosial şəbəkələrdə yayılan görüntülər böyüklərin "xeyir-duası" ilə azyaşlıların nişanlandırıldığını təsdiqləyir. Əslində, erkən nikah sosial problem kimi bütün dövrlərdə öz aktuallığını qoruyub. Araşdırmalar nəticəsində məlum olub ki, erkən nikaha daxil olma bəzən qızların öz istəkləri, bir sıra hallarda valideynlərinin təzyiqi, ailədə maddi vəziyyətin çətin olması və digər səbəblərdən baş verir.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması



**Mehriban Zeynalova,**
"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri

Dünya təcrübəsinə nəzər salsaq görərik ki, bir çox ölkələr, xüsusilə müsəlman dövlətlərində bu problem qabarıq şəkildə nəzərə çarpmaqdadır. Təbii ki, burada din faktorunun da mühüm rol oynadığını nəzərdən qaçırmaq olmaz. Hazırda ölkəmizdə yalnız müvafiq icra orqanlarında bağlanılan nikahlar qanuni sayılır.

Onu da qeyd edək ki, bu gün bölgələrdə ölkə əhalisinin müəyyən qismi ailə qurarkən müxtəlif səbəblər ucbatından dini kəbinə üz tutur və bu da bir sıra hallarda erkən nikahlara yol açır. Məlum olduğu kimi, dövlət tərəfindən qeydiyyata alınan nikahdan fərqli olaraq, dini kəbin hüquqi akt sayılmır. Evlilik həyatında sonradan cütlüklər arasında hər hansı problem yaranarsa, yaxud münasibətlər pozularsa, həmin nikah heç bir qanuni əhəmiyyət daşımır. Belə hallarda övladlar üçün də qanuni məsələlərdə bir sıra problem yaşanır.

Qeyd edək ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də erkən nikah hallarının baş verməsinin bir çox hallarda ailələrdə münaqişələrə, boşanmalara və nəticədə sosial cəhətdən həssas qrupların sayının artmasına səbəb olduğunu təsdiqləyir. Qurumun yaydığı məlumata görə, ölkədə 18 yaşadək nikaha girən qızların sayının ən yüksək həddi 2011-ci ildə olub: "Həmin dövrdə belə qızların sayı 5138 idisə, qanunvericillikdə qızlar üçün minimal nikah yaşının 17-dən 18-ə qaldırılması, habelə qadını nikaha məcbur etməyə görə cinayət məsuliyyətinin müəyyən edilməsi və maariflənmə işlərinin nəticəsində 2012-ci ildən bu göstəricinin azalması müşahidə olunur. Belə ki, 2019-cu ildə nikahları qeydə alınmış 18 yaşadək gəlinlərin sayı azalaraq 366, bəylərin sayı isə 1 nəfər olub. Eyni zamanda, 15-17 yaşlı qadınlar tərəfindən doğulan uşaqların sayı 2011-ci ildə 4392, 2019-cu ildə isə bu rəqəm azalaraq 2320 təşkil edib".

### Statistikaya görə, Azərbaycanda 18 yaşadək nikaha girən qızların sayının ən yüksək həddi 2011-ci ildə qeydə alınıb

Komitə həmçinin bəyan edib ki, Nazirlər Kabinetinin 23 iyun 2020-ci il tarixli Qərarı ilə "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası" təsdiq edilib. Qaydadan irəli gələn vəzifələrin icrası istiqamətində Xarici İşlər Nazirliyi tərəfindən Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinə və konsulluqlarına Qərar barədə məlumat verilib, onların məskunlaşdığı dövlətlərdə pandemiya ilə əlaqədar tətbiq edilən karantin qaydalarına riayət etmək şərti ilə lazımi tədbirlərin görülməsinin təmin edilməsi üçün təlimat göndərilib.

Məlumat üçün xatırladaq ki, 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən şəxslər uşaq-yeniyetmə hesab olunur. Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən olunub. Üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin xahişi ilə onların yaşadığı ərazinin müvafiq İcra Hakimiyyəti orqanı nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər. Digər hallarda nikaha daxilolma erkən nikah hesab edilir və müvafiq qanunvericiliyə əsasən belə nikahlar etibarsız sayılır.18 yaş 1989-cu il tarixli Uşaq Hüquqları Konvensiyasında müəyyənləşmiş son həddir, uşaqların nikaha daxil olması insan hüquqlarının pozulması hesab olunur. Bundan başqa, Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunur ki, hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ var. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz. Bu yerdə qeyd edək ki, erkən nikah, erkən nikaha məcbur etmə hallarına əsasən qızlar arasında rast gəlinir. Valideynlik hüquqlarının uşaqların mənafeyinə zidd həyata keçirilməsi yolverilməzdir. Valideynlik hüquqlarını həyata keçirərkən valideynlər uşaqların mənəvi inkişafına, fiziki və psixi sağlamlığına xələl yetirməməlidirlər. Uşaqların tərbiyəsində onların istismarına, təhqir edilməsinə, mənəviyyatının alçaldılmasına, qəddarlığa, kobudluğa, biganəliyə yol verilməməlidir. Nikahın bağlanması üçün nikaha daxil olan şəxslərin yazılı razılığı, tibbi müayinədən keçdiklərini təsdiq edən arayışın təqdim edilməsi və onların nikah yaşına çatmaları zəruridir. Heç kəs razılığı olmadan məcburi nikaha daxil olmağa məcbur edilə bilməz. Hər hansı şəxsin öz iradəsinin əleyhinə nikaha daxil olmasına məcbur edilməsi qadağan edilir.

*"Əslində, erkən nikaha girənləri statistikaya almaq çətindir, çünki rəsmi nikah deyil"*

Nikah yaşına çatmayan şəxsin evləndirilməsi isə qanunsuz və əsassızdır, eyni zamanda şəxs nikah yaşına çatsa belə, arzulamadığı, öz razılığı olmadan ailə qurulmasına məcbur etmə qanunla qadağan edilir. Konstitusiyamızın yuxarıda qeyd olunan normasına əsasən, Cinayət Məcəlləsinin (CM) 176-1.1-ci maddəsi qadını nikaha daxil olmağa məcbur etməni, 176-1.2-ci hissəsi isə nikah yaşına çatmayan qadını nikaha daxil olmağa məcbur etməni özündə ehtiva edir və sanksiyalaşdırılıb.

■ **Məsələyə ilə bağlı hafta.az-la fikirlərini bölüşən "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova deyib ki, onlara müraciət edən qadınlar arasında da erkən nikahdan zərərçəkmişlər var:** "İndi bizə gələnlərin bir neçəsi erkən nikahdan zərər çəkmişlərdir. Əlbəttə, bunlar erkən nikaha vadar edildikləri üçün müraciət etməyiblər. Bunlar proses keçmiş, xeyli müddət evlilik yaşamış, sonra tək qalmış qadınlardır.

Yəni, ilkin mərhələ deyil, nəticə olaraq ən ağır formada zərər çəkmiş qadınlardır. Lap çıxılmaz vəziyyətə düşmüşlər. Sənədi, evi, iş-peşəsi olmayan, uşaqları məktəbə getməyən, sağlamlıqlarında problem olanlardır. Əslində, erkən nikaha girənləri statistikaya almaq çətindir, çünki rəsmi nikah deyil. Yalnız uşağın doğulma tarixinə baxanda görürsən ki, qızlar 15-16-17 yaşında uşaq dünyaya gətiribsə, deməli, erkən nikahdır. Bir neçə il əvvəl UNİSEF ölkədə 5 min erkən nikah qeydə almışdı. İndi də təxminən, o civarda qalır. Üç min 500, 4 min, 4 min 500 kimi rəqəmlərdir, amma real rəqəmləri biz bilmirik".

Onun sözlərinə görə, əksər hallarda bu nikahlarda iştirakçı valideynlərdir: "Bir də bizdə iqtisadi məsələlər var. Valideyndən icazəsiz ailə quranda bir çox maddi dəstəkdən məhrum oluruq. Az hallarda qızlar aqressiv şəkildə nikahdan imtina edir. Əksəriyyəti belə nikahla razılaşır. Əslində, Azərbaycanda qadınlar üçün imkanlar var; qanunvericilik imkanları da, digər imkanlar da. Siz təsəvvür edin, iş həyatı olan qadınlara psixoloji təzyiq, bəlkə evdə oturanlardan daha çoxdur. Bu psixoloji zorakılıq yeraltı sular kimidir. Görünmür, amma məhv edir. Kimsə kimisə öldürmür, amma sən hər yerdə aqressiyanı hiss edirsən. Belə mühitdə valideynlər şüuraltı instinkt kimi qızlarını tez ərə vermək, bununla adlarını üstlərindən götürmək istəyirlər. Maraqlı da budur ki, adları üstlərindən götürdükdən sonra övladları ilə maraqlanmır, dəstək olmurlar. Cinayəti törətməkdə - erkən yaşda ərə verməkdə iştirak edirlər, amma sonrakı taleyi ilə maraqlanmırlar. Bizim prestijimiz, brendimiz tez ərə getməkdir, çünki mühit bizə ancaq bunu aşılayır. Uşağın gələcəyini təhsil və peşədə görən ailələr azdır".

### Ekspert rəyi...

■ **Məsələyə münasibət bildirən psixoloq Vəfa Əkbər isə hesab edir ki, erkən nikahlar ailə institutunun dağılması deməkdir: "Erkən ərə verilən qızlar öz şəxsi mövqelərini qoya bilmirlər, çünki dəyər sistemi formalaşmayıb, onlar daim idarə olunublar.** İnanın ki, o cür evlənən cütləri 4-5 il sonra bir arada tək buraxsanız, onlar yaşaya bilməyəcəklər. Digər tərəfdən, məktəbli yaşında ailə həyatı quran qızlarda bir müddət sonra həm də psixoloji problemlər yaranır: "Qızlar yeniyetməliyini, gəncliyini yaşaya bilmirlər. 15-16 yaşda qızlar həyatı dərk etməyə, nəyisə öyrənməyə cəhd edirlər. Həyatı dərk etmədən ailə həyatı qurmaq qızların "köləyə" çevrilməsi ilə nəticələnir. Digər tərəfdən, qız uşaqları erkən yaşda ana olurlar. Ailədəki problemlər, qayğılar, uşaq tərbiyəsi ilə bağlı çətinliklər onların psixologiyasına mənfi təsir göstər. Bəzən bu, ailənin dağılması ilə nəticələnir".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## BİR CÜMLƏ-BİR XƏBƏR

■ Türkiyə Silahlı Qüvvələri İraqın şimalında növbəti antiterror əməliyyatına başlayıb. "Pəncə Qartal 2" adı verilən əməliyyat zamanı İraqın Qara bölgəsində yerləşən PKK terror təşkilatının düşərgələri hədəf alınıb.

---

■ Hindistanın tanınmış aktyoru və rejissoru Raciv Kapur 58 yaşında ürəktutmasından vəfat edib, əfsanəvi Rac Kapurun oğlu olan Raciv Mumbaydakı evində keçinib.

---

■ Rusiyalı müxalifətçi bloger Aleksey Navalnının həyat yoldaşı Yuliya Navalnaya Rusiyanı tərk edib, Navalnayanın "Domodedovo" hava limanından Frankfurt--Mayna uçduğu bildirilir.

---

■ Azərbaycanda ötən il "COVID-19" ilə mübarizəyə sərf edilən vəsaitin miqdarı açıqlanıb, 2020-ci ilin dövlət büdcəsindən "COVID-19" ilə mübarizəyə 1 mlrd. 985,6 mln. manat vəsait sərf olunub.

---

■ Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Diplomatlar Günü münasibətilə Rusiya XİN-i təbrik edib, bu barədə XİN-in "Twitter" səhifəsində bildirilib.

---

■ Polis kapitanı Azər Ələkbərov Göygöl rayon Polis Şöbəsinin Dövlət Yol Polis Bölməsinə yeni rəis təyin edilib, bununla bağlı Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb.

---

■ Daha bir qazinin müalicəsi "YAŞAT" Fondu tərəfindən qarşılanıb, qazi Əbülfət Qurbanovun müalicəsi "YAŞAT" Fondu tərəfindən ianələr hesabına qarşılanır.

---

■ Ermənistanda 2020-ci ildə görünməmiş sayda - 426 qaçaqmalçılıq cinayəti aşkar edilib, bunu Ermənistan Dövlət Gəlirləri Komitəsinin Qaçaqmalçılıqla mübarizə şöbəsinin müdiri Vardan Vardanyan deyib.

---

■ Sabiq vergilər naziri Fazil Məmmədov mülklərini satışa çıxarıb, artıq sabiq nazirin məşhur "Ekselsior" (Excelsior) hotel şəbəkəsini satdığı da iddia olunur.

---

■ Bu gündən 35 nömrəli müntəzəm marşrut xətti (Yavər Əliyev küç. (Akkord binaları) - Ramiz Quliyev (Bravo market) üzrə sərnişindaşımaları ekoloji baxımdan təmiz, Avro-6 standartlarına cavab verməsi ilə fərqlənən 12-metrlik "BakuBus" MMC-yə məxsus avtobuslarla icra ediləcək.

---

■ ABŞ Tehrana tətbiq etdiyi sanksiyaları ləğv etməsə, nüvə fəaliyyətimizi sürətləndirəcəyik, bu açıqlama ilə İran xarici işlər naziri Məhəmməd Cavad Zərif çıxış edib.

---

■ Azərbaycan Nəqliyyat Rabitə və Yüksək Texnologiyalar Nazirliyində yeni təyinat olub, nazir Rəşad Nəbiyevin əmri ilə Aida Bədəlova nazirin müşaviri vəzifəsinə təyin edilib.

---

■ Qondarma Abxaziya "parlamenti" Rusiya Dumasına müraciət edərək, bərabərhüquqluluq şərti ilə "respublika" ərazisindən keçib Ermənistana gedən dəmir yolunun açılması layihəsində iştirak etməyə hazır olduğunu bildirib.

---

■ Çin qonşularını, o cümlədən Hindistanı təhdidə cəhd edir, bunu ABŞ Dövlət Departamentinin mətbuat katibi Ned Prays deyib.

---

■ Bakıda xəstəxanadan qaçan 17 yaşlı Kifayət Vəlicanova tapılıb, yeniyetmə qız Nizami rayon mühafizə idarəsinin polis əməkdaşı tərəfindən tapılaraq, Nizami rayon 25-ci polis bölməsinə təhvil verilib.

# Rusiya XİN-dən həmsədrlər açıqlaması

**ATƏT Minsk qrupunun həmsədrlərinin fəaliyyəti davam etdirilməlidir. Bunu Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko TASS agentliyinə müsahibəsində deyib.**



O bildirib ki, həmsədrlər Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin baza prinsiplərinin hazırlanmasına vacib töhfə verib və bu prinsiplərin əksəriyyəti 2020-ci il 9 noyabr bəyanatında əksini tapıb: "İndi ATƏT Minsk qrupu və onun həmsədrləri ermənilərlə azərbaycanlılar arasında etimad tədbirlərinin gücləndirilməsi məsələlərində fəallıq nümayiş etdirə bilər. Vətəndaş cəmiyyəti çərçivəsində dialoqun inkişafı regiondakı vəziyyətin sağlamlaşdırılmasına və siyasi müstəvidə növbəti addımların atılması üçün şərtlərin yaradılmasına xidmət edəcək".

# GUAM PA-ya sədrlik Gürcüstana keçib

**Fevralın 10-da GUAM Parlament Assambleyasının videokonfrans formatında 15-ci Büro iclası keçirilib. Milli Məclisdən hafta.az-a verilən məlumata görə, iclasda GUAM PA-nın sədri, qurumda Azərbaycan nümayəndə heyətinin rəhbəri Elnur Allahverdiyev və nümayəndə heyətinin üzvü Nəsib Məhəməliyev iştirak ediblər.**

Tədbirdə GUAM Parlament Assambleyasının komitələrində 2021-ci il üçün milli nümayəndə heyətlərinin tərkibinin təsdiqlənməsi, Büronun növbədənkənar iclasının nəticələri, Gürcüstandakı Parlament seçkilərində qurumun müşahidə missiyasının işi, GUAM PA-nın 13-cü iclasının Bəyannamə layihəsi və digər məsələlərə baxılıb. Müzakirələr zamanı GUAM PA-da Gürcüstan nümayəndə heyətinin rəhbəri Georgiy Xelaşvili, Ukrayna nümayəndə heyətinin rəhbəri Svyatoslav Yuraş, Moldova nümayəndə heyətinin rəhbəri Aleksandru Jizdan gündəlikdəki məsələlər barədə öz fikirlərini açıqlayıblar. GUAM PA-nın Baş katibi Altay Əfəndiyev əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsinə dair öz rəy və təkliflərini diqqətə çatdırıb. Tədbirdə GUAM Parlament Assambleyasına sədrlik Azərbaycandan Gürcüstana təhvil verilib.

## Proqnoz

**Qlobal ticarət dövriyyəsinin bərpasının COVID-19 pandemiyası səbəbindən 2021-ci ilin I rübündə yenidən yavaşlayacağı gözlənilir. Bu barədə BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) "Ticarət və İnkişaf 2020" adlı hesabatında deyilir.**

Qeyd edilir ki, cari ilin I rübündə qlobal əmtəə dövriyyəsi 1,5%, xidmət dövriyyəsi isə 7% azalacaq. Lakin BMT sözügedən proqnozları qəti saymır və səbəblər kimi, pandemiyanın yayılmasını və gələcək stimullaşdırıcı paketləri göstərir.

Xatırladaq ki, 2020-ci il ərzində qlobal ticarətin həcmi 9%, təkcə ötən ilin I rübündə isə 15% azalmışdı. 2020-ci ilin sonuncu rübündə qlobal ticarət dövriyyəsinin həcmi rüblük müqayisədə 12% artmışdı və artımın əsas drayveri Şərqi Asiya ölkələrində fəaliyyətin bərpası olmuşdu.

***

**ABŞ-ın Energetika Nazirliyi yanında Energetika İnformasiyası Administrasiyası (EIA) ölkədə neft hasilatı üzrə proqnozunu azaldıb.**

EIA-in aylıq hesabatına görə, cari il ABŞ da gündəlik neft hasilatı 11,02 mln. barel olacağı gözlənilir. Ötən proqnoza görə, bu göstərici 11,1 mln. barel təşkil edəcəyi ehtimal olunurdu. Proqnoza əsasən, gələn il ABŞ-da gündəlik neft hasilatı 11,53 mln. barel təşkil edəcək. Qeyd edək ki, ötən il EIA-in hesablamalarına görə, ABŞ-da ortalama gündəlik neft hasilatı 11,31 mln. barel olub.

Pandemiya

# Avropada vaksin müharibəsi

*Hazırda dünyada koronavirusa qarşı hazırlanan peyvəndlərin əldə edilməsi ilə bağlı əsl müharibə başlayıb bənzətməsini işlətsək yanılmarıq. Sirr deyil ki, hələ keçən ilin sonlarından vaksin hazırlığına dair ekspertlər səviyyəsində çox müsbət proqnozlar verilirdi. Xüsusilə də Avropa şirkətləri sözügedən istiqamətdə qısa zaman kəsiyində vaksinə olan tələbatın ödəniləcəyini açıqlamışdı, artıq peyvəndlər də hazırdır.*






2021-ci ilin ikinci ayını yaşamağımıza baxmayaraq, dünya üzrə peyvənd istehsalı və vaksinləmə prosesi olduqca ləng gedir. Belə bir şəraitdə isə sürətlə yayılan koronavirus özünün yeni ştammları ilə hər gün minlərlə can alır, milyonlarla insan isə yoluxur. İqtisadi cəhətdən zəif inkişaf edən dövlətlərdə isə vəziyyət daha acınacaqlı hal alıb. Pulun yoxdursa, vaksin də yoxdur.

Məsələnin digər tərəfi isə peyvənd istehsalı ilə bağlı yanaşmanın siyasiləşdirilməsidir. Koronavirus ümumbəşəri problem olsa da, siyasi konfrantasiyada olan tərəflər, xüsusilə də peyvənd istehsal edən ölkələr arasındakı siyasi qarşıdurmalardan ən çox əziyyəti milyonlarla insanlar çəkir. Bunun əyani nümunəsini Avropa və Rusiya qarşıdurmasında görürük.

■ **“Express” qəzetinin jurnalisti Tim Maknaltinin qənaətincə, Rusiya istehsalı olan “Sputnik V” Avropa Birliyini parçalamaq ərəfəsindədir, artıq belə bir təhdid formalaşıb:** ”Avropa ölkələrində peyvəndləmə prosesi çox ləng gedir. “Astra-Zeneca” və “Pfizer” şirkətləri yetərli sayda peyvənd istehsalını çatdıra bilmir. İtaliya, artıq EMA-nın qərarını gözləmədən Rusiya peyvəndinin tətbiqinə razılıq verəcəyi ilə bağlı təhdidini ortaya qoyub. Romada hesab edirlər ki, ”Sputnik V” vaksinasiya proqramını sürətləndirməyə imkan verəcək. Həm də Avropa Birliyinin koronavirusa qarşı mübarizə üçün alternativ mənbələrin tapılması ilə bağlı gördüyü işlər fonunda rus vaksininin tətbiqi ”bürokratik qaydalardan yan keçməklə vaxta qənaət” imkanı da yaradacaq”.

Qeyd edək ki, rus vaksininə maraq tək İtaliyada deyil. Avstriya və Almaniya kanslerləri Sebastyan Kurts və Angela Merkel də ”Sputnik V”yə maraq göstərirlər. AB üzvü olan Macarıstan belə müstəqil şəkildə bu vaksini almağa başlayıb. Çexiyanın da məlum istiqamətdə planlarının olduğu açıqlanıb. Rusiya vaksininə qarşı açıq şəkildə çıxış edən ölkə isə Litvadır. Müvafiq razılıq olacağı təqdirdə belə, Litva ”Sputnik V” sifariş etməyəcəyini bəyan edib.

■ **Portuqaliyanın Publico nəşrinin də məsələyə yanaşması maraqlıdır.** Nəşr Angela Merkel və Avropa Birliyinin rəhbərlərindən olan Jozeff Borrelin məsələyə münasibətini əsas tutaraq bildirir ki, artıq khnə qitənin qapıları rus vaksini üçün aralanıb.

■ **“Əgər vaksinin keyfiyyəti yüksəkdirsə, nə üçün o qəbul edilməsin? Tək səbəb onun rus istehsalı olmasıdır?” - Avropa Şurasının xarici məsələlər üzrə estoniyalı analitiki Kadri Liik bu qənaətdədir.** Onun sözlərinə görə, Rusiya rəhbərliyinin siyasi mövqeyinə görə ”Sputnik V”dən imtina ağılsızlıq olardı. ”Bununla belə, Borrelin Moskvadan vaksin istəməsi doğru yanaşma deyildi”, - Liik deyib.

■ **“Genişlənən Avropa” proqramının sədr müavini Coanna Xosanın sözlərinə görə isə, Borrel son səfəri ilə Rusiyanın etimad göstərilə biləxək tərəfdaş olmadığını anlayıb. Bu səbəbdən AB Moskvaya qarşı daha sərt yanaşma tərzi ortaya qoymalıdır:**

”Rusiya tələsik və siyasi amillər səbəbindən tez bir zamanda öz vaksinini istehsal edərək onun imicinə zərər verib. Moskva hesab edirdi ki, bu rəqabətdir və mütləq qələbə qazanmalıdır, lakin əksi ilə üzləşdi. Elmi dairələr Moskvanın belə yanaşmasını tənqid etdilər. Görünən odur ki, artıq onların rus vaksini barədə daha dolğun məlumatları var və ”Sputnik V”yə müsbət yanaşırlar”. Ekspert vurğulayır ki, Rusiya vaksindən geosiyasi alət kimi istifadə etməyə çalışaraq özünün uğurunu Avropanın məbluiyyəti kimi göstərməyə səy edəcək.

■ **“Delfi” agentliyi isə Litvanın rus vaksinindən imtinasəna xüsusi yer ayırır.** Ölkənin baş naziri İnqrida Şimonitə istinadən bildirilir ki, Litva əhalisi yalnız trans-Atlantik məkana daxil olan ölkələrdə istehsal edilən peyvəndlərlə vaksinasiya ediləcək. Onun sözlərinə görə, Rusiya vaksindən siyasi məqsədlər üçün istifadə edəcək: Rusiyanın özündə peyvənd qıtlığı yarandığı bir vaxtda yaşananların növbəti geosiyasi oyun olduğunu söyləyə bilərəm. Be məndə heç bir şübhə doğurmür”.

Göründüyü kimi, artıq məsələ yenə də Rusiya və Qərbin siyasi dairələrinin peyvəndləmə prosesinə nə dərəcədə səmimi şəkildə siyasi maraqlardan kənar yanaşma ortaya qoya biləcəyinə bağlıdır. Bir məqam yenə də unudulur. Bəşəriyyət tək Avropa və inkişaf etmiş Qərb dövlətləri və ya Rusiyadan ibarət deyil. Dünyada peyvəndə ehtiyac duyan milyardlarla insan məhz iqtisadi cəhətdən daha az inkişaf etmiş dövlətlərdə yaşayır.

Burada xüsusi olaraq qeyd etmək yerinə düşər ki, Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının fəaliyyətdə olan sədri kimi koronavirusa qarşı mübarizə ilə bağlı BMT-nin xüsusi sessiyasının çağırılması təşəbbüsü, ortaya qoyduğu siyasi iradə əhalisinin və ərazisinin kiçik olmasına baxmayaraq, rəsmi Bakının bir çoxlarından fərqli olaraq ümumbəşəri problemlərlə humanizm baxımından vahid yanaşma tərəfdarı olduğunu göstərir.

✍ ***Azad Əliyev***

*Bu gün ölkəmizdə formalaşan bələdiyyələrin ciddi maliyyə çətinliyi ilə üzüzə qalması danılmaz faktdir. Çoxsaylı problemlərlə yanaşı, koronavirus pandomiyasının yaratdığı gərginlik bələdiyyələrimizi həqiqətən çıxılmaz vəziyyətə salıb. Açıq etiraf edək ki, Nazirlər Kabineti yanında Opreativ Qərargahın təsdiq etdiyi fəaliyyətinə icazə verilmiş müəssisə və qurumların siyahısında yerli özünüidarə orqanlarının adının olmaması çətinlik və problem burulğanının həndəvərində olan bələdiyyələrin mövcud vəziyyətini daha da gərginləşdirdi.*



**Vüqar Tofiqli,**
Bələdiyyələr üzrə ekspert

# Bələdiyyələrin dalana dirənmiş fəaliyyəti

Onu da qeyd edək ki, DSMF-yə küllü miqdarda borcların olması səbəbindən, hazırda 1000-dən artıq bələdiyyənin bank hesabı bağlıdır. Məhz bu səbəbdən bələdiyyə əməkhaqqından başqa hər hansı bank əməliyyatı etmək iqtidarında deyil. Hətta bir çox hallarda bank tərəfindən bələdiyyə büdcəsinə daxil olan maliyyə vəsaitinin hamısının borca silinməsi nəticəsində bələdiyyə qulluqçularının əməkhaqqı ala bilməməsi adi hala çevrilib. Halbuki bu addımın atılması özü qanuna ziddir.

Faciə doğuran məqam bir də ondadır ki, borcu ola-ola bəzi siyasi rəhbərlər, yəni icra başçıları sədrləri dotasiyadan daxil olan maliyyə vəsaitini nağdlaşdırmağı tələb ediblər. Bərdə bələdiyyələrinin 800 min manata, Gədəbəy bələdiyyələrinin 400 min manata yaxın DSMF-yə borclu qalmasının əsas səbəbinin də məhz sədrlərin və siyasi rəhbərlərin məsuliyyətsizliyi ucbatından olması “gün kimi” aydındır. Məhz bu səbəbdəndir ki, ötən il bələdiyyələrə ayrılan dotasiya bələdiyyələrin DSMF-yə olan borcunun həcmini azaltmadı.

***

Sosial media üzərindən bələdiyyə sədrlərindən, üzvlərindən və qulluqçularından bələdiyyələrin əsas problemlərini dilə gətirmək dəfələrlə xahiş etsək də çox təəssüf ki, əsas mahiyyətə toxunulmaması və ciddi məqamlara deyil, daha çox xırda, bəzən də ciddi görünməyən məqamların dilə gətirilməsi təəssüf doğurur. Bu isə ondan xəbər verir ki, bir çox sədrimiz, üzvlərimiz, qulluçularımız öz üzərlərində işləmirlər. Ən əsası, fəaliyyətlərini təbliğ etmək istəmir, ya da siyasi rəhbərlərin qəzəbinə tuş gəlməmək üçün kölgədə qalmağa üstünlük verirlər. Fikrimcə, bələdiyyə büdcəsinə daxil olan maliyyə vəsaitinin həcminin artırılması üçün hər bir bələdiyyədə xüsusi konsepsiya olmalıdır. Yaxşı olardı ki, bu konsepsiyanın hazırlanmasında bələdiyyə assosiasiyaları da yaxından iştirak etsinlər. Qanunların verdiyi imkandan istifadə etməklə əmlak və torpaq

## REAL VƏZİYYƏT və ÇIXIŞ YOLLARI BARƏDƏ

vergisini toplamaqla, əhali arasında təbliğat işinə üstünlük verilməlidir. Mədən vergisinin toplanılması, icarəyə verilən torpaqlardan vergilərin yığılması daim diqqətdə saxlanılmalıdır. Bələdiyyələrdə DSMF-yə borcun yaranmaması və ya artmaması üçün əlavə işçilərin saxlanılması aradan qaldırılmalıdır.

Əlavə edim ki, hər il bələdiyyələr qanunun tələbinə uyğun olaraq seçicilərinə hesabat verməlidirlər. Bu, həm də o deməkdir ki, bələdiyyə öz fəaliyyətini təhlil etməli, nöqsanları, uğurları, irəliləyişləri və axsamaları görməli və nəticə çıxarmalıdır. Bu il cəmi beş bələdiyyə bu hesabatları təqdim edib, ictimailəşdirib. Mərdəkan, Muxax, Mingəçevir, Kəpəz bələdiyyələrindən başqa demək olar ki, əksər bələdiyyələr pandomiyanı bəhanə gətirərək hesabatı hətta hazırlamayıblar.

***

Nəticə etibarilə deməliyəm ki, bələdiyyələrin qarşılaşdığı problemlərin həllinə kompleks yanaşılmalıdır. Bu gün 1606 bələdiyyədən 255-nin illik büdcəsi yalnız dotasiyadan ibarətdir. Belə olan halda onların qalmasına nə lüzum var. Hazırda Ali Baş Komandanın və müzəffər ordumuzun atdığı addımlar sayəsində 20 faizlik ərazimiz erməni işğalından azad edilib. Bu ərazilərdə ciddi layihələr həyata keçirilməkdədir. Nəticədə əhali həmin torpaqlara köçürüləndən sonra atılacaq addımlardan biri də bu ərazilərdə bələdiyyələrin formalaşdırılmasıdır. Demək, bələdiyyələrimizin sayının artması realdır. İllik büdcə gəliri yalnız dotasiyadan ibarət olan bələdiyyələrin saxlanılması nə qədər məntiqlidir. Demək, bələdiyyələrin problemlərinin azadılması qanunla müəyyən edilmiş qaydada həyata keçirilməlidir. Ən əsası ötən illərdə hazırlanan, lakin müzakirəyə belə çıxarılmyan “Yerli icra və özünüidarə orqanlarının səlahiyyət bölgüsünü və bu orqanların qarşılıqlı əməkdaşlğını hüquqi tənzimlənməsini özündə ehtiva edən Qanun”un qəbulu mütləqdir və bələdiyyələrin gələcək fəaliyyəti üçün əsas şərtdir. Siyasi rəhbərlərin bələdiyyələrin fəaliyyətinə müdaxiləsinin qarşısı yalnız qanunla alınmalı və bu əməkdaşlıq qanunla tənzimlənməlidir. Bununla yanaşı, qanunla bələdiyyələrin sayının azaldılması üçün bələdiyyələrin formalaşması üçün tələb olunan əhalinin say tərkibinin minimum sayının artırılması nəticə etibarilə bələdiyyələrin sayının azalmasına səbəb olacaq. Bununla yanaşı, işləməyən, əhali arasında özünə hörmət qazanmayan, hər ili borcla yola verən bələdiyyələrin də birləşdirilməsi məqsədəuyğun olmalıdır. Misal olaraq Səbail və Xətai rayonlarında formalaşan bələdiyyələrə baxaq. Səbail rayonunda üç, Xətai rayonunda iki bələdiyyə formalaşıb. Badamdar, Bibiheybət və Səbail bələdiyyələrindən yalnız Səbail bələdiyyəsinin fəaliyyəti diqqəti çəkir. Digər bələdiyyələr haqqında nə bilgi var, nə də ki fəaliyyət. Əməkhaqqını belə verə bilməyən bu bələdiyyələrin qalmasının nə əhəmiyyəti var. Və yaxud Əhmədli bələdiyyəsinin ötən illərdəki qalmaqallı fəaliyyəti, seçilmiş sədrlərin bələdiyyəni kənardan idarə etmək çəhdi nəticədə bələdiyyələri sakinlər üçün görünməz edib. Demək, bu bələdiyyəni də fəaliyyətiylə seçilən Xətai bələdiyyəsinə birləşdirlməsinə tam zəruriət vardır.

***

Beləliklə, bələdiyyələrin problemlərinin azaldılması və bu qurumların müəyyən inkişaf səviyyəsinə çatdırılması üçün ilk növbədə xüsusi konsepsiya hazırlanmalı və problemlərin həllinə konseptual yanaşılmalıdır. Qanunlardakı və normativ hüquqi sənədlərdəki boşluqların aradan qaldırılmasından başlamış maliyyə gəlirlərinin artırılması və bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsi məsələsi gündəmə gətirilməli, yerlərdə mövcud idarəetmədəki paralellik aradan qaldırlmalıdır.

Bir məqamı da vurğulayım ki, dəyişiklik ediləcək hüquqi sənədlərdə bələdiyyə sədrlərinin məsuliyyət məsələsinə də yer ayrılmalıdır. Yəni bələdiyyəni borclu vəziyyətə salan şəxslərin məsuliyyət daşıması xüsusi qeyd edilməlidir. Bəlkə bu məqamın qəbulundan sonra bələdiyyələrdə borc yaranmaz.

Bununla yanaşı bələdiyyə assosiasiyalarının fəaliyyətinin daha səmərəli və keyfiyyətli olması, bələdyyələrin arxasınca deyil, bələdiyyələri arxasınca aparması üçün bu üç qurumun birləşdirilərək fəaliyyətinə yenidən baxılmasına ehtiyac vardır. Biz seçicilər isə gələcəkdə keçiriləcək seçkilərdə məhz layiqli namizədə səs verməklə bələdiyyələrimizin nufuzunu artırmış olacağıq.

Hər halda qaldırılan məsələlər ətrafında düşünməyə dəyər.

Araşdırma

# “Sputnik V” və “Astra Zeneca”nın Azərbaycanda birgə sınağı

***Fevralın 8-də Səhiyyə Nazirliyi “Sputnik V” və “Astra Zeneca” vaksinlərinin birgə tətbiqi üçün ölkədə kliniki tədqiqatlar aparılmasına icazə verib. Daha əvvəl N.F.Qamaleya adına Elmi-Tədqiqat Mərkəzi, Rusiyanın Birbaşa İnvestisiyalar Fondu (RBİF), “AstraZeneca” şirkəti və “R-Pharm” Şirkətlər Qrupu koronavirus vaksininin hazırlanması sahəsində Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə 2020-ci ilin dekabrında əməkdaşlıq haqqında birgə memorandum imzalayıblar.***

Dünyada vaksinlərin ilk birgə tətbiqi 24 dekabr 2020-ci ildə qeydə alınan kliniki sınaqların protokolu çərçivəsində həyata keçirilir. Tədqiqatlar “Sputnik V” vaksininin və Oksford Universiteti ilə birgə “AstraZeneca” şirkəti tərəfindən işlənib-hazırlanmış vaksinin kombinasiya edilmiş tətbiqinin immunogenliyinin və təhlükəsizliyinin qiymətləndirilməsini nəzərdə tutur. Tədqiqat proqramı bir neçə ölkənin ərazisində 6 ay davam edəcək. Bu tədqiqatların aparılmasına hər bir ölkədən 100 könüllünün cəlb edilməsi planlaşdırılır. Röytersin məlumatına görə isə, Azərbaycanda aparılacaq sınaqlar 29 gün davam edəcək. Azərbaycanla yanaşı, Argentina, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirliyi, Belarus, Rusiya və Ukraynada da bu sınaqlar həyata keçiriləcək.

Sosial şəbəkələrdə də mövzu ilə bağlı müzakirələr başlayıb. Bir çoxlarını sınaqlar üçün niyə məhz Azərbaycanın seçilməsi maraqlandırır. Bəzi sosial şəbəkə istifadəçiləri sınaq zamanı istifadə olunacaq peyvənd qarışığının məhz qərarı verənlərin özləri üzərində tətbiqini “məsləhət” biliblər. Könüllülərin hansı meyarlar əsasında seçiləcəyi də maraq doğuran suallar sırasındadır. Hafta.az iki vaksinin birləşməsinin nə kimi təsirlərinin ola biləcəyi, həmçinin yuxarıda qeyd edilən sualların cavablarını tapmaq üçün araşdırma aparıb.

■ **Mövzu ilə bağlı ilk ünvan qərarı qəbul edən əsas qurum kimi Səhiyyə Nazirliyi oldu. Nazirliyin mətbuat xidmətinin əməkdaşı Elvin Hacıyev hafta.az-a danışarkən bildirdi ki, hələlik bu barədə heç bir açıqlama verə bilməyəcəklər:**

“Bir neçə gün sonra mövzu ilə bağlı tədqiqatı aparan şirkətlər birgə məlumat yayacaq. Bizə deyilib ki, tədqiqat başlayanda, təxminən, fevral ayının sonu həmin şirkətlərin açıqlaması olacaq”. Qurum rəsmisi sınaqlarıı aparan şirkətlərlə bağlı sorğumuzu da cavabsız qoymağı üstün tutdu.



## Könüllülər necə seçilir?

■ **Daha sonra tibb elmləri doktoru, professor Aqil Qeybulla mövzuya münasibət bildirdi. Onun sözlərinə görə, ayrı-ayrı vaksinlərin təsir mexanizmləri müxtəlif olsa da, son nəticə eynidir. Bu baxımdan ona qeyri-adi yanaşmaq lazım deyil:** “Əslində, yaxşı olardı ki, kim ilk olaraq hansı vaksini vurdurubsa, ikinci dəfə də onu vurdursun. Şəxs birində Çin, digərində İngiltərə istehsalı olan vaksin olunubsa, burada da elə bir problem yoxdur. Hal-hazırda çalışıb dünya əhalisinin hamısını peyvənd etdirmək lazımdır ki, pandemiyadan yaxa qurtaraq”.

Tibb eksperti onu da vurğuladı ki, könüllülər hər zaman insanların öz arzusu əsasında seçilir. Burada xüsusi meyar qeyd etmək doğru olmaz. Müraciət olunur, kateqoriyaya uyğun insanlar seçilir. Klinik çalışmalar da əslində elə bu cür aparılır.

“O ki qaldı təcrübələr üçün niyə məhz Azərbaycanın seçilməsinə, onu deyə bilərəm ki, sınaqlar Amerika və Avropada da həyata keçirilir. Əslində, bu gün vaksinin klinik tətbiqi də bir növ sınaqdır. Bu vaksinlər gərək uzun illər təcrübədən keçsin, lakin ortada bir təcililik var. Kütləvi peyvəndləmə tarixində hər hansı bir hadisə olduqda, onun qarşısı alınır və dayandırılır. Xəstəliklərin Müşahidə və Profilaktika mərkəzləri bununla bağlı çox ciddi şəkildə iş aparır. Dünyada baş verən hər bir hadisə qeydə alınır. Problem yaranacağı halda, kütləvi vaksinasiya dayandırıla bilər”.

■ **İnfeksionist Nicat Əzimli, sözügedən vaksinlərin təsir mexanizmi bizdə indiyədək tətbiq olunan Sinovac vaksininin təsir mexanizmindən fərqli olduğunu söylədi. Onu da əlavə etdi ki, bir ölkədə 2 ayrı növ vaksinin tətbiqi normal haldır:** “İstənilən tədqiqat mərhələlərlə aparılır. Preparat müəyyən “in vitro” və “in vivo” mərhələlərindən keçərək insan üzərində tədqiqat hissəsinə gəlib çatır. Daha sonra insanlar arasında ilk öncə könüllü qruplar üzərində sınaqdan keçirildiyini nəzərə alsaq, bu hər bir vaksin və ya dərmanda oxşar alqoritmdir”.

> “ Bir neçə gün sonra mövzu ilə bağlı tədqiqatı aparan şirkətlər birgə məlumat yayacaq

> “ Sınaqlar Amerika və Avropada da həyata keçirilir

> “ Bir ölkədə 2 ayrı növ vaksinin tətbiqi normal haldır

Məsələnin qanunvericilik tərəfinə gəldikdə isə Milli Məclisin Tibb komitəsinin əlaqə saxladığımız üzvləri mövzu ilə bağlı hər hansı məlumata malik olmadıqlarını söylədilər.

■ **Azərbaycan Tibb Universitetinin Mətbuat Katibi Günel Aslanova isə söylədi ki, bu gün Universitetdə mövzu ilə bağlı iclas keçirilib. Prosesin detalları haqqında hələlik məlumatlar dəqiqləşdirilir.** Qeyd edək ki, Rusiya Birbaşa İnvestisiya Fondunun (RDİF) açıqlamasına görə, birləşdirilmiş peyvəndin sınaqları yeni koronavirus mutasiyalarına qarşı ən təsirli vasitəni istehsal etmək üçün vacibdir.

RDIF prezidenti Kirill Dmitriyevin açıqlamasında bu sözlər yer alıb:

”Koronavirusu məğlub etmək üçün beynəlxalq səylərimizi birləşdirməli və ən qabaqcıl həll yollarından istifadə etməliyik. Dünyanın aparıcı tibbi jurnalı olan “The Lancet”də dərc olunan bir məqalə “Sputnik V”in 100/91,6 faiz təsirli olduğunu göstərdi.

Bu, dünya səviyyəsində nəticəsi yüzdə doxsanın üzərində olan 3 peyvənddən biridir. Münasib qiymətli və təsirli vaksinlərin sayını artırmaq üçün biz digər istehsalçılar ilə də əməkdaşlıq etməyə hazırıq. Sputnik V peyvəndi ilə AstraZeneca peyvəndinin birləşməsinin klinik testi üçün ortaqlıq, dünyada belə bir iş birliyinin ilk və çox vacib nümunəsi oldu”.

Bir məqamı da diqqətinizə çatdıraq ki, həm ingilis, həm də rus peyvəndi 2 dozada istifadə etmək üçün hazırlanmışdır. İkinci doza birinci dozanın yaratdığı immuniteti gücləndirmək üçün tətbiq olunur. Bundan başqa, hər iki peyvənd antikor istehsal etməyə görə, virusun genetik kodlarını bədənə aparan viral vektor peyvəndidir.

✍ ***Banu***

Sosial

# Səhiyyə sistemində səlahiyyət davası

◂ əvvəli 1-ci səhifədə



### Özəl tibbi xidmət niyə bahadır?

**■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Səhiyyə Nazirliyi yanında İctimai Şuranın üzvü, Azərbaycan Diabet Liqasının sədri Yeganə Sultanova isə ümid edir ki, icbari tibbi sığortanın bütün ölkə üzrə tətbiqindən sonra vətəndaşlarının tibbi xidmətlərə əlçatanlılığı xeyli yüksələcək:**

"Mən həm vətəndaş, həm də həkim olaraq buna ümid edirəm. Bəzi rayonlarımızda tibbi sığorta pilot layihə olaraq tətbiq olunur. Həmin rayonlarda seminarlarda olarkən müşahidə etdik ki, layihə ilə bağlı həm həkimlər, həm də vətəndaşlar müsbət fikirdədirlər. Ümid edirik, bu layihə bütün ölkəni əhatə edəndən sonra tibbi xidmətlərə əlçatanlıq yüksələcək".



**Yeganə Sultanova,** Azərbaycan Diabet Liqasının sədri

> *İndi hansı televiziyanı açırsan, verilişlərdə ancaq özəl tibb müəssisələrindən olan həkimlərin reklamları gedir*

Onun sözlərinə görə, hazırda özəl tibb müəssisələrində qiymətlərin həddindən artıq baha olmasının da müxtəlif səbəbləri var: "Burada ilk növbədə kütləvi informasiya vasitələrində gedən reklamlar böyük rol oynayır. İndi hansı televiziyanı açırsan, verilişlərdə ancaq özəl tibb müəssisələrindən olan həkimlərin reklamları gedir. Vətəndaş da baxır ki, bu adam hər gün televiziyadadır və avtomatik olaraq həmin həkimi axtarıb tapır. İnanın ki, həmin həkimlərin əksəriyyəti bizim rezidentlərdir. Bəzən tv-lərə çıxanda da müəyyən mövzularla bağlı bizdən məsləhət alırlar. Burada etiraf olunmalı bir məsələ də var ki, özəl klinikalarda olan laboratoriyalar dövlət klinikalarında yoxdur. Biz də xəstələri məcbur olub, özəl klinikalara analiz verməyə göndəririk. Nəticədə, pasiyentlər üçün əlavə xərclər meydana çıxır. İndi biz də səbirsizliklə Bakıda icbari tibbi sığortanın tətbiqini gözləyirik. Güman edirik, bu islahatdan həm həkimlər, həm də xəstələr razı qalacaqlar".

## İslahatlar qaçılmazdır

### Yaxın illərdə yüksək səviyyəli tibbi xidmət vədi

**■ Məsələyə münasibət bildirən Milli Məclisin Səhiyyə komitəsinin üzvü Məlahət İbrahimqızı hafta.az-a açıqlamasında deyib ki, bu gün Azərbaycanda bütün sahələrdə ardıcıl və sistemli islahatlar həyata keçirilir:** "Vətən Müharibəsindən yenicə çıxmağımıza, koronavirus pandemiyası ilə hələ də mübarizə aparmağımıza baxmayaraq ölkədə islahatlar davam etdirilir. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində bütün istiqamətlərdə, o cümlədən səhiyyə sahəsində davamlı inkişaf müşahidə edilir. Hər bir dövlət üçün əhalinin sağlamlığının qorunması əsas prioritetlərdəndir. Dövlətin nə qədər resursu olsa da, sağlam vətəndaşı olmadan həmin resursu bazara çıxarmaq qeyri-mümkündür. Bu gün ölkəmizdə səhiyyənin səviyyəsinin yüksəlməsi son elmi texnoloji yeniliklərin tətbiqi sahəsində mümkün olub. Məhz pandemiya dövründə ölkə səhiyyəsinin bu duruma adekvat olması reallığı tam əks etdirir. Koronavirus pandemiyası dövründə bu sahədə görülən işlər, o cümlədən yeni tibb müəssisələrinin açılması ölkə səhiyyəsi ilə bağlı mənzərənin açıq təzahürüdür. Bununla paralel vətəndaşların sağlamlığına xidmət edən icbari tibbi sığorta modelinin ölkəmizdə tətbiqi mühüm əhəmiyyət kəsb edir. Ölkədə icbari tibbi sığortanın tətbiqi elə səhiyyə sahəsində köklü islahatların aparıldığı deməkdir. İslahat vətəndaşların tibbi xidmətlərə əlçatanlılığının təmin olunmasına hesablanıb.

Bildiyiniz kimi, ölkəmizdə icbari tibbi sığortanın tətbiqi mərhələli şəkildə həyata keçirilir. Bu istiqamətdə ilk olaraq Mingəçevir, Yevlax və Ağdaşda pilot layihələr icra edildi və alınan nəticələr çox müsbət oldu, hətta ürək əməliyyatı da aparıldı. Pilot layihələrlə əhatə olunmuş şəhərlərdə həm tibbi xidmətin keyfiyyəti artdı, həm də vətəndaşların məmnunluğu yüksək səviyyədə oldu. Əgər ötən il pandemiya baş verməsəydi, 2020-ci ildə icbari tibbi sığorta bütün ölkəni əhatə edəcəkdi. Pandemiya səbəbindən bu məsələ yubandı və bu il bütün ölkəni əhatə edəcək. İcbari tibbi sığortanın tətbiqində yüksək maddi-texniki bazaya malik olan səhiyyə müəssisələrinin əhəmiyyəti böyükdür".

Millət vəkili vurğulayır ki, icbari tibbi sığorta yeni bir model olduğundan bu məsələdə hansısa çatışmazlıqların baş verməsinə normal yanaşılmalıdır: "Bu sahə bizdə yenidir. Gələcəkdə daha da inkişaf edəcək. Vətəndaşlar hələ bu ildən əməkhaqlarından icbari tibbi sığorta haqqı ödəyirlər. Həssas qrupların tibbi sığorta xərclərini isə dövlət qarşılayır. Əminəm ki, vətəndaşlar yaxın iki il ərzində icbari tibbi sığortanın ən yüksək səviyyədə tətbiqinin şahidi olacaqlar. Vətəndaşlar yaşadıqları yerdən asılı olmayaraq ən yüksək səviyyədə tibbi xidmətlə təmin olunacaqlar".



**Məlahət İbrahimqızı,** Milli Məclisin Səhiyyə komitəsinin üzvü

> *Ölkədə icbari tibbi sığortanın tətbiqi elə səhiyyə sahəsində köklü islahatların aparıldığı deməkdir*

*✍ Sevinc*

# Mədəniyyət Nazirliyinin 2021-ci il hədəfləri

**Azərbaycan xalqı özünün tarixi-mədəni irsi, folkloru, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə haqlı olaraq fəxr edir. Mədəniyyətimiz xalqımızın minilliklər boyu yaratdığı və nəsildən-nəsilə ötürdüyü maddi və mənəvi dəyərləri özündə ehtiva edir.**

Mədəniyyət Nazirliyi xalqımızın yaratdığı zəngin mədəniyyəti və maddi-mənəvi irsi qorumaq, inkişaf etdirmək, məzmununu zənginləşdirmək və gələcək nəsillərə layiqincə çatdırmaq, eləcə də dünya miqyasında onu təbliğ etmək, habelə bu sahədə dövlət siyasətini səmərəli şəkildə həyata keçirmək məqsədilə 2021-ci il üçün əsas hədəflərini elan edir:

*- Mədəniyyət sahəsində və idarəetmə sistemində islahatların aparılması.*

*- Mədəniyyət və yaradıcılığın inkişafı və məzmununun zənginləşdirilməsi.*

*- Yeni mədəni dəyərlərin yaradılması, yaradıcı sənayelərin inkişafı.*

*- Mədəni irsin qorunması, bərpası və inkişafı.*

*- Mədəniyyətin Qarabağa qaytarılması, işğaldan azad edilmiş ərazilərin mədəni irsinin və infrastrukturunun bərpası.*

*- "Nizami Gəncəvi ili" ilə bağlı yerli və beynəlxalq səviyyədə tədbir və layihələrin həyata keçirilməsi.*

*- Azərbaycan mədəniyyətinin dünyada təbliğinin gücləndirilməsi, beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi.*

*- Azərbaycan mədəniyyətinin ölkə daxilində təbliği məqsədilə layihə və tədbirlərin həyata keçirilməsi.*

*- Covid-19 pandemiyası ilə əlaqədar mədəniyyət sahəsində yaranan çağırışların həll edilməsi.*

# Fransadan Ermənistana "hərbi dəstək" vədi

Siyasət



***Son günlər Azərbaycan və Ermənistan, həmçinin Rusiya mətbuatının ən çox üzərində dayandığı məsələlərdən biri Fransanın Ermənistana hərbi yardım edəcəyi ilə bağlı səsləndirilən iddialardır. Qeyd edək ki, bir neçə gün əvvəl Ermənistanın müdafiə naziri Vaqarşak Arutyunən Fransanın bu ölkədəki səfiri Conatan Lakotla görüşüb. Yayılan xəbərlərə görə, tərəflər iki dövlət arasında hərbi əməkdaşlıq məsələlərini müzakirə ediblər. Fransanın Ermənistana hərbi yardım etməyə hazır olduğu xüsusilə vurğulanıb və müəyyən razılaşmalar da əldə edilib.***

Təbii ki, məlum məsələ Azərbaycanda ciddi narahatlıq doğurmaya bilməz. Ən azından, Fransanın Azərbaycanın əsas müttəfiqi sayılan Türkiyəyə qarşı Aralıq dənizi böhranı ilə bağlı yanaşması göz önündədir. Paris hər vəchlə Türkiyənin maraqlarını zərbə altında qoymaq və onu zəif duruma düşürmək üçün Yunanıstana ən müasir hərbi texnikalar verir - ya pulu ilə, ya da hədiyyə olaraq.

44 günlük Vətən müharibəsi zamanı Parisin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ermənipərəst bəyanatları da çox yaxın keçmişdir. Ölkə Senatının qondarma rejimin "müstəqilliyini" tanımasına dair bədnam qətnaməsinin izləri də itməyib. İndi isə Paris özünün yeni məkrli planlarını işə salır. Layiqli cəzasını almış təcavüzkarı silahlandıraraq yenidən işğala və qisasa körükləyir. Fransanın bölgədə hərbi mövcudiyyətini artıqmaq istəyi tək Azərbaycanı yox, həm də Rusiya və Türkiyəni də düşündürür. Ekspertlər isə Fransanın Ermənistana "hərbi dəstək vədinin elə söz olaraq qalacağı qənaətindədir.

**■ Politoloq Məhəmməd Əsədullazadə "Həftə içi"nə şərhində bildirib ki, Fransanın Azərbaycandakı səfiri Ermənistanla Fransa arasında silah ticarəti ilə bağlı danışıqların aparılmasını təkzib edib.** Fransa, eləcə də Minsk Qrupunun həmsədri olaraq nə Azərbaycan, nə də Ermənistanla hərbi-ticari əlaqələr qurmadığını qeyd edib. M.Əsədullazadə vaxtilə Azərbaycanla Fransa arasında müəyyən hərbi əlaqələrin mövcud olduğunu xatırladaraq, bu əlaqələrin Ermənistanla da qurulmasına cəhdlərin ola biləcəyini inkar etməyib.

"II Qarabağ savaşı ərəfəsində Fransa ilə Azərbaycan arasında əlaqələrdə soyuqluq yaşandı. Fransa Minsk Qrupunun həmsədri kimi birtərəfli olaraq işğalçının yanında oldu. Bu xüsusda Fransanın Ermənistana diqqət ayırması və onu silahlandırması mümkündür. Əgər Ermənistanın müdafiə naziri Fransanın səfiri ilə görüşürsə, tərəflər arasında müəyyən dialoq varsa, deməli, hərbi təyinatlı silahların Ermənistana göndərilməsi mümkündür. Ermənistanın o silahları almağa maddi imkanı çatmasa da, bu silahlar hədiyyə kimi də verilə bilər. Əlbəttə ki, bu regionda hərbi pariteti dəyişməyəcək. Bununla Fransa yalnız özünün vasitəçilik missiyasına kölgə salacaq. Nəticədə, Azərbaycan gələcəkdə Fransanın vasitəçilik missiyasınadan kənarlaşdırılmasını tələb edə bilər.Fransanın bu hərəkətləri Makronun Azərbaycan və Türkiyəyə qarşı fobiya siyasətinin nəticəsidir". Politoloqun sözlərinə görə, Azərbaycan öz ərazi bütövlüyünü təmin edib və əgər Fransa Ermənistanı silahlandırmaqla ərazinin təhlükəsizliyini yenidən zərbə altına salacaqsa, Bakı qəti şəkildə buna öz etirazını bildirməlidir. Politoloq vurğulayır ki, Azərbaycan buna mane olmaq üçün daha çox iş görməli, qətiyyətli şəkildə Ermənistanın silahlandırılmasını həyata keçirən xarici ölkələrə regionda müharibəni alovlandıran tərəflər kimi ciddi mesajlar verməlidir:

"Əgər Ermənistan kapitulyasiyaya imza atırsa və Azərbaycan haqlı tərəfdirsə, ilk şərt Ermənistanın silahlandırılmaması barədə olmalıdır. Ermənistanla yalnız o xüsusda sülh müqaviləsi bağlanıb, iqtisadi əlaqələrin qurulması barədə razılıq əldə oluna bilər ki, İrəvan silahlandırılmaması ilə bağlı öhtəlik götürsün. Ermənistan artıq Qarabağda "Arsax" iddiasından əl çəkməldir".

> *Fransanın bu hərəkətləri Makronun Azərbaycan və Türkiyəyə qarşı fobiya siyasətinin nəticəsidir*

### Zakari Qross, Fransanın Azərbaycandakı səfiri:

**- Fransa ATƏT-in Ermənistan və Azərbaycana silah ixracına tətbiq etdiyi çoxdankı məhdudiyyət tədbirlərinə hörmət edir. Ermənistan da Azərbaycanda xarici hərbi məhsul tədarükçülərini müəyyən edib. Bu tədarükçülər hər kəsə məlumdur. Ermənistanın və Azərbaycanın həm də region dövlətləri ilə müdafiə sazişləri mövcuddur.**

Fransanın nə Ermənistanla, nə də Azərbaycanla bu cür razılaşması var. Bu, Fransanın regiondakı təhlükəsizliyə qərəzsiz yanaşmasına uyğundur. Fransa ATƏT Minsk qrupunun həmsədri qismində mandatının icra olunmasında tamamilə qərəzsizdir. Fransa Ermənistanla Azərbaycan arasında baş vermiş müharibədən və insan ölümlərindən təəssüflənir və atəşkəs rejiminə ciddi əməl etməyə, dayanıqlı sülhə, barışığa və əməkdaşlığa çağırır.

### Aleksandr Xrolenko, rusiyalı hərbi ekspert:

**- Üçtərəfli bəyanata əsasən Fransa Dağlıq Qarabağdakı sülhməramlıların tərkibində yer ala bilməz. İrəvan və Paris arasındakı hərbi-texniki əməkdaşlıq imkanları isə Ermənistanın Kollektiv Təhlükəsizlik Şurası Təşkilatına üzvlüyü səbəbindən çox məhduddur.**

Bu əməkdaşlığa maneə yaradan digər səbəblər də var. Ermənistanla Rusiya arasında əldə olunmuş razılaşmalara əsasən, hər iki dövlətin Hava Hücumundan Müdafiə sistemləri birləşdirilib, burada rus hərbi bazaları var. Ən əsası isə İrəvanın hərbi büdcəsi çox kiçikdir - cəmi 664 milyon dollar. Fransanın təklif edə biləcəyi hərbi texniki vasitələr isə çox bahalıdır. Parisin İrəvana kredit xətti açması da inandırıcı deyil.

*✍ Azad*



**■ "Kosmik fəaliyyətlərimiz sahəsində Azərbaycan və Pakistanla müqavilələrimiz hazırdır, imzalanma mərhələsinə gəldik".**

Bunu Türkiyənin sənaye və texnologiyalar naziri Mustafa Varank "Anadolu" agentliyinə deyib. Nazir deyib ki, Türkiyə kosmik fəaliyyətlərlə əlaqədar üç ölkə ilə müqavilə imzalanıb. Qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyənin 10 milli kosmik proqramını açıqlayıb və Türkiyə Kosmik Agentliyinin (TUA) fəaliyyəti haqqında məlumat verilib. Tədbirdə Türkiyə Prezidenti Türkiyənin 2023-cü ilə qədər Aya enmək və Türkiyə vətəndaşı olan kosmonavtın hazırlanması planlarının olduğunu bildirib.





**■ Niderlandın "Heineken N.V." pivəbişirmə şirkəti 8 min işçisini ixtisar edəcək. Növbəti iki il ərzində isə şirkət 2 mlrd ABŞ dollarına qənaət etmək niyyətindədir.**

Hazırda şirkətin işçi ştatı 85 min nəfərdir. Beləliklə, ixtisar işçilərin 9%-dən çoxunu əhatə edəcək. Ştatın kütləvi azaldılması şirkətin ümumi restrukturizasiya xərclərini 509 mln. dollara yüksəltsə də, işçi heyətinə yönələn xərclərini 424 mln avro azaldacaq. Qeyd edək ki, dünyanın ən böyük ikinci pivəbişirmə şirkəti 2020-ci ili 204 mln avroluq (247,3 mln. dollar) xalis zərərlə bitirib (2019-cu ildə 2,37 mlrd. dollar xalis mənfəət). COVID-19 pandemiyası səbəbindən bağlanan pablar və barlar "Heineken"in satış gəlirlərini 17% azaldaraq 28,86 mlrd dollara endirib.



**■ Ötən il qayda pozan sürücülərə yazılan cərimələrin məbləği açıqlanıb. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2020-ci ildə yol hərəkəti qaydaları əleyhinə aşkarlanmış inzibati xətaların sayı 3631,1 min olub.**

Xətaların 39,9 faizi yolda müəyyən edilmiş hərəkət sürəti həddinin aşılması, 21,7 faizi dayanma və ya durma qaydalarının pozulması, 9,2 faizi yol nişanlarının və ya yolların hərəkət hissəsinin işarələrinin tələblərinə riayət edilməməsi, 8,4 faizi işıqforun və ya nizamlayıcının qadağanedici işarəsi verilərkən hərəkətin davam etdirilməsi, üzrə aşkarlanıb. Qaydaların pozulmasına görə 118,2 milyon manat məbləğində cərimələr tətbiq edilib.



**■ Dağlıq Qarabağda atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Mərkəzinin fəaliyyətə başlaması regionda vəziyyətin normallaşmasına istiqamətlənmiş birgə səylərə yaxşı nümunədir.**

Bunu Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko TASS-a müsahibəsində "Türkiyənin Cənubi Qafqazda hərbi mövcudluğunun güclənməsindən Rusiya qorxmur?" sualına cavabında bildirib. O, Ankara ilə regionda hərbi əməkdaşlığın Ağdam rayonunda yanvarın 30-dan etibarən fəaliyyətə başlayan Dağlıq Qarabağda atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Mərkəzi çərçivəsində qurulduğunu qeyd edib: "Belə mərkəzin açılmasına regiondakı vəziyyətin normallaşmasına istiqamətlənmiş birgə səylərə yaxşı nümunə kimi baxırıq".



**■ Bakıda fərdi yaşayış və bağ evlərinin qiymətində həm ay, həm də il ərzində əhəmiyyətli dərəcədə artım qeydə alınıb. "MBA Group" konsaltinq şirkətinin direktoru, əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimovun verdiyi məlumata görə, yanvar ayında fərdi yaşayış və bağ evlərinin qiymətində 8.99 faiz artım müşahidə edilib.**

Ötən ilin eyni dövrü ilə müqayisədə isə artım 10.87 faizə bərabər olub. Ekspertin sözlərinə görə, qiymət artımına müxtəlif amillər təsir edir: "Bu amillərdən biri bazarda struktur dəyişikliyidir, yəni daşınmaz əmlak ucuz alınır, baha satılır və tədricən ucuz əmlaklar sıradan çıxır. Digər faktorlar isə inflyasiyanın təsiri, daşınmaz əmlak bazarında təklif paketinin azalmasıdır.



**■ Şəhid və qazi ailələri üzvlərinin sosial müdafiəsinin, məşğulluğunun təmin edilməsi məqsədilə cari ilin 28 yanvar tarixindən etibarən Təhsil Nazirliyi sisteminə daxil olan dövlət ümumi təhsil müəssisələrində müvafiq vakansiyalara işə qəbul prosesi dayandırılıb.**

Təhsil Nazirliyindən verilən məlumata görə, həmin kateqoriyadan olan şəxslərə üstünlük verilməsi üçün tədbirlər həyata keçirilib. Belə ki, Təhsil Nazirliyinə şəhid və qazi ailəsi üzvləri tərəfindən işə qəbulla əlaqədar 56 müraciət daxil olub. Müraciətlər araşdırıldıqdan və vakant yerlərlə bağlı həmin şəxslərlə əlaqə saxlanılaraq rəylər alındıqdan sonra 23 müraciət müsbət həllini tapıb.



**■ Baş nazirin sabiq müavini Abid Şərifovun nəvəsi Nicat Mahmudovun Şəkidə hotel kompleksi tikməsi ilə bağlı məlumat yayılıb. Məsələ ilə bağlı unikal.org-a açıqlama verən Abid Şərifov faktı təsdiqləyib.**

O bildirib ki, Şəki Şəhər İcra Hakimiyyəti tərəfindən istismara verilən "Şəki Park" oteli nəvəsinə məxsusdur: "Nicat mənim qızımın oğludur. Şəkidə tikinti edib, amma ona hotel demək olmaz. Üçmərtəbəli yataqxanatipli bir yerdir. Yazıldığı qədər böyük kompleks deyil. Bunu böyütmək nəyə lazımdır?". Qeyd edək ki, "Şəki Park" hoteli dördmərtəbəli binadan və ümumi sahəsi 5 200 kvadratmetrdən çox olan 1, 2 və 3 otaqlı koteclərdən ibarətdir.

Araşdırma

# Qarabağdakı mina faciələrinin qarşısını necə almalı?

**Son müzəffər Vətən savaşımızdan ötən 3 ay ərzində işğaldan azad edilmiş torpaqlarımızda həm hərbi, həm də mülki vətəndaşlarımız üçün əsas təhlükə mənbəyi düşmən tərəfindən basdırılmış minalar hesab olunur. Demək olar ki, hər həftə ya bir və ya bir neçə hərbçimizin, yaxud mülki vətəndaşlarımızın mina partlayışı nəticəsində həlak olması, yaralanması haqda xəbərlər eşidirik. Sonuncu belə bir olay fevralın 8-də Tərtər rayonunun işğaldan azad edilmiş Talış və Suqovuşan məntəqələri istiqamətində baş verib. Həmin ərazidə 5 hərbçimiz minaya düşüb. Hadisə zamanı hərbi qulluqçular ağır xəsarətlər alıb və hərbi hospitala təxliyə olunublar. Onlardan birinin - polkovnik-leytenant Kamil Duniyevin ayağı amputasiya edilib.**



Respublika Baş Prokurorluğunun yaydığı məlumata görə, 10 noyabr 2020-ci il tarixdən hazırkı vaxtadək işğaldan azad edilmiş ərazilərdə minaya düşmələri nəticəsində 5 hərbi qulluqçu, 9 mülki şəxs həlak olub, 52 hərbi qulluqçu, 8 mülki şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Müdafiə Nazirliyi, Daxili İşlər Nazriliyi, Baş Prokurorluq və ANAMA-nın dəfələrlə xəbərdarlığına rəğmən, mülki vətəndaşlar

## Keçmiş döyüşçü zabitlər cavab verir...



**Arif Paşa,**
keçmiş Laçın alayının komandiri, ehtiyatda olan polkovnik

*"Dünyanın istənilən ordusunda minalanmış sahələrin formulyarının, yəni xəritəsinin hazırlanılıb saxlanılması zəruri normativ aktdır"*

qaydalara əməl etməyərək icazəsiz şəkildə qadağan olunmuş zonalara daxil olur və nəticədə bədbəxt hadisələr baş verir.

Doğrudur, soydaşlarımızın mina partlayışlarının qurbanı olmasının əsas səbəblərindən biri hərbi və ya mülki vətəndaşlarımızın məsuliyyətsizlik edərək qadağan olunmuş ərazilərə getməsidir. Digər tərəfdən, işğaldan azad ərazilərdə quruculuq işlərində iştirak edən müxtəlif qurum əməkdaşları, eləcə də hərbçilərin müxtəlif zəruri işlərin, tapşırıqların yerinə yetirilməsi zamanı ağlagəlməyən yerlərdə basdırılmış minalara düşməsi faktları da xeylidir. Bunun da əsas səbəbi Ermənistan ordusu tərəfindən işğal müddətində və son döyüşlər zamanı minalanmış sahələrdən məlumatsızlığımızdır. Ali Baş Komandan da son çıxışlarının birində ermənilərin mina sahələrinin xəritələrini verməkdən imtina etdiyini bildirib.

Hərbçilərə gözəl məlumdur ki, hərbi əməliyyatlar zamanı basdırılmış minaların "formulyar" deyilən xəritələri tərtib olunur. Bəs görəsən, Azərbaycan tərəfinin Ermənistan Müdafiə Nazirliyindən həmin xəritələri əldə etmək şansı yoxdurmu?..

Reallıqda Rusiyanın sülhməramlı missiyası daşımalı olan ordusu əgər doğrudan da həm Azərbaycan, həm erməni tərəfdən canlı itkilərin sayını azaltmağa çalışırsa, bu gün faktiki Moskvanın hər əmrini yetirməyə hazır olan Ermənistandan minalanmış sahələrin xəritələrinin surətlərini əldə edə və bunu Azərbaycan ordusuna da verə bilər.

**■ Mövzu ilə bağlı "Həftə içi"nə açıqlamasında keçmiş Laçın alayının komandiri, ehtiyatda olan polkovnik Arif Paşa bunları söyləyib:**

"Dünyanın istənilən ordusunda minalanmış sahələrin formulyarının, yəni xəritəsinin hazırlanılıb saxlanılması zəruri normativ aktdır. Düşmənin canlı qüvvəsi və ya texnikasının məhv edilməsi üçün nəzərdə tutulmuş mina sahəsinə kəşfiyyat və ya döyüş əməliyyatı zamanı həmin ordu hərbçilərinin özü də düşə bilər. Eyni zamanda zərurət yarandıqda mina formulyarlarının surətləri müttəfiq ölkə ordularına da verilə bilər.

Əlbəttə, Ermənistan minalanmış sahələrin xəritələrini Azərbaycana versə, bu həm hərbçilər, həm də mülki əhali arasında itkilərin sayını xeyli azalda bilər.

Hesab edirəm ki, Rusiyanın Qarabağa yerləşmiş hərbi kontingenti Ermənistan Müdafiə Nazirliyindən, eləcə də Qarabağdakı separatçı xuntadan minalanmış sahələrin formulyarlarını əldə edib. Yaxud ən azı, şifahi olaraq həmin sahərin yerini öyrəniblər. Düzdür, dekabr ayında Rusiya minaaxtaran hərbçilərindən də biri Şuşa yaxınlığında mina partlayışından həlak oldu. O, minaya düşərkən yox, onun artıq yerini müəyyən edib zərərsizləşdirərkən hansısa ehtiyatsız hərəkət nəticəsində öldü. Bizim əksər hərbçilər bilavasitə yerini bilmədikləri minaların üzərinə ayaq basarkən və ya avtomobillə keçərkən baş verən partlayış nəticəsində həlak olurlar.



**Azay Kərimov,**
İstefada olan kəşfiyyatçı polkovnik

*"Həmin başıpozuq dəstələr ordumuza, mülki əhalimizə, hökumət qurumlarının əməkdaşlarına qarşı hər cür təxribata əl ata bilərlər"*

Bunlar fərqli şeylərdir".

"Bunu bacaran mülki ermənilər də arxayın çıxdıqları rayon ərazilərinə, məsələn, Kəlbəcər, Laçın, Ağdamın və s. yaşayış məntəqələrinə təsadüfən əldə etdikləri minaları basdıra bilərlərmi?" sualını isə Arif Paşa belə cavablandırıb: "İstisna kimi belə xaotik hallar ola bilər. Təbii ki, bu cür minalı yerlərin formulyarı olmayacaq. Burada ciddi bir məsələ var. Ən intizamsız orduda belə, mülki əhali üçün minanı əldə etmək, onunla davranmaq "Kalaşnikov" avtomatı kimi asan ola bilməz. Avtomat silah özünümüdafiə məqsədilə mülki əhaliyə də sənədlə verilə bilər. Minanın verilməsi tapançanın və ya avtomatın verilməsi qədər sadə məsələ deyil. Mülki şəxs onunla davranmağı bacarsa belə, minanın basdırılması ona etibar edilə bilməz. Ona görə ki, xaotik olaraq basdırılmış minaya sabah həmin mülki şəxsin özü və ya onun yerini bilməyən ordu mənsubu da düşə bilər. Odur ki, mülki ermənilərin mina əldə etməsi yalnız çox nadir hallarda baş verə bilər. Sadəcə, döyüş zamanı hansısa ordu hissəsinin dislokasiya yerində partlatmağa belə macal tapmayaraq qoyub qaçdığı silah-sursat anbarlarından təsadüf nəticəsində o ərazidə qalmış mülki şəxsin mina əldə etməsi mümkündür...

Bir sözlə, savaşlar zamanı basdırılmış minaların böyük əksəriyyətinin formulyarları tərtib olunur və uzun illər arxivlərdə saxlanılır. Onu qarşı tərəfin bu və ya digər yollarla əldə etməsi də mümkün ola bilər", - deyə keçmiş döyüşçü alay komandiri qeyd edib. Digər qorxulu bir ehtimal ANAMA və ya ordumuz tərəfindən minadan təmizlənmiş sahələrə erməni diversantlarının yenidən mina basdırmasıdır. Bəs belə bir hal mümkündürmü?

**■ İstefada olan kəşfiyyatçı polkovnik Azay Kərimov "Həftə içi"nə açıqlamasında belə deyib:**

"İnsanlarımızın mina partlayışlarının qurbanı olmasının hazırda iki əsas səbəbi var. Birincisi, dəfələrlə müvafiq qurumlar tərəfindən qeyd edilən vətəndaş məsuliyyətsizliyidir. Təəssüf ki, son vaxtlar belə hallara hərbçilər arasında da yol verilir. Bilirsiniz, tarixən hələ qədimlərdən bəri savaşlardan sonra "qələbədən arxayınçılıq" deyilən bir sindrom var ki, bu da ordularda bir az boşluq, intizamsızlıq yaradır. Görünür, bizim bəzi hərbi qulluqçularımız da belə bir sindroma yoluxduqlarından, bəzən dislokasiya olunduqları ərazilərdə mina təhlükəsi olub-olmamasını nəzərə almadan hansı tərəfə gəldi, hərəkət edirlər. İnşallah, belə hallar varsa, tezliklə qarşısı alınar...

Digər qorxulu məsələ, qeyd etdiyiniz kimi, təmizlənmiş yollara, sahələrə düşmən tərəfindən yenidən mina basdırılması ehtimalıdır. Bu, gerçəklikdə mümkün ola bilən bir işdir. Məlum olduğu kimi, hələ Yuxarı Qarabağ ərazisi Ermənistan hərbi birləşmələrindən, eləcə də mülki ermənilər tərəfindən yaradılmış qanunsuz silahlı dəstələrdən tam təmizlənməyib.

Həmin başıpozuq dəstələr ordumuza, mülki əhalimizə, hökumət qurumlarının əməkdaşlarına qarşı hər cür təxribata əl ata bilərlər. Bildiyiniz kimi, hələ noyabrın sonu, dekabrın əvvəllərində Hadrut istiqamətində hərbi və mülki vətəndaşlarımız arasında itkilərə səbəb olan belə gözlənilməz hücumlar baş vermişdi.

Silahlı hücumdan əlavə, düşmən özlərinə yaxın ərazilərdə ordumuzun, mülkilərimizim hərəkət etdiyi əsas yollara, keçidlərə, körpülərə yenidən minalar döşəyə bilər. Odur ki, işğaldan azad ərazilərimizdəki hər bir istər hərbçimiz, istərsə də mülki vətəndaşlarımız daim və həddindən artıq ayıq-sayıq olmaldırlar", - deyə kəşfiyyatçı polkovnik fikrini tamamlayıb.

***Sultan Laçın***



# Uşaq bağçaları açılışa hazırdır

**Son vaxtlarda ölkədə koronavirus pandemiyasına qarşı aparılan tədbirlər nəticəsində sanitar vəziyyətin yaxşılaşması ilə əlaqədar fevralın 15-dən Bakı şəhəri üzrə fəaliyyət göstərən dövlət və özəl uşaq bağçaları fəaliyyətini davam etdirəcək.**

Uşaq bağçalarının fəaliyyəti, ancaq mövcud vəziyyət nəzərə alınmaqla, müvafiq sanitar-gigiyenik normalara əməl edilməklə mümkün olduğundan Bakı Şəhər İcra Hakimiyyətinin Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi tərəfindən müvafiq hazırlıq tədbirləri həyata keçirilir. Bununla əlaqədar İdarənin tabeçiliyində olan bütün bağçalarda dezinfeksiya işləri aparılıb. Bağçaların tərbiyəçiləri və texniki işçiləri bağçalarda geniş təmizlik, tibbi-profilaktik işlər görürlər. İşçi personal hazırki şəraitdə işləmək qaydaları ilə bağlı təlimatlandırılıb.

Bütün bağçalar tibbi maskalar, əlcəklər, hərarət ölçən aparatlar, dezinfeksiya məhlulları ilə təmin edilib. Bağçaların oyun, yataq və digər otaqlarında hazırlıq işləri aparılır. Otaqların havalandırılması və təlimata uyğun dezinfeksiyası üçün tədbirlər həyata keçirilir. Mətbəx və sanitariya qovşaqlarına diqqət artırılacaq, burada mütəmadi dezinfeksiya işləri aparılacaqdır.

Hər bir bağçanın girişində xüsusi dezinfeksiyaedici məhlullar qoyulub. Hər gün bağçaya gələn işçi heyəti və uşaqların temperaturu ölçüləcək, tərbiyəçilər tez-tez valideynlərlə əlaqə saxlayacaqlar. Həftə sonu bütün bağçalarda tam dezinfeksiya işləri aparılacaqdır.

Bağçaların fəaliyyətə başlaması ərəfəsində Bakı Şəhər İcra Hakimiyyəti Aparatının rəhbəri Elgin Həbibullayevin sədrliyi ilə paytaxt rayonları bağça rəhbərlərinin iştirakı ilə video konfrans formatında müşavirələr keçirilmiş, görülməsi vacib məsələlərlə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Paytaxtın uşaq bağçaları fəaliyyətə başladıqdan sonra xüsusi karantin rejiminin tələblərinə uyğun müəyyən edilən qaydalar çərçivəsində işləyəcək, bu müəssisələrdə sanitar-gigiyena və karantin qaydalarının tələblərinə ciddi əməl olunmasına nəzarət Bakı Şəhər İcra Hakimiyyəti və Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin əməkdaşları tərəfindən həyata keçiriləcəkdir.

# Türkiyəli turistlərin ölkəmizə axını başlayacaq



**Ümid edirik ki, Türkiyə vətəndaşları üçün Azərbaycana viza tələbinin ləğv olunması türkiyəli turistlərin artmasına xeyli təsir edəcək. Ölkələrimiz arasında turizm münasibətlərinin inkişafında qarşılıqlı turist mübadiləsinin artması bizim üçün önəmlidir.**

Bunu Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev fevralın 10-da Azərbaycan-Türkiyə turizm işçi qrupunun 1-ci iclasında çıxış edərkən bildirib. Fuad Nağıyev normal şərtlər altında Bakıda baş tutmalı olan işçi qrupu görüşünün pandemiya səbəbindən videokonfrans formatında keçirildiyini qeyd edib.




**■ UEFA quruma üzv olan 55 milli assosiasiya ilə Çempionlar Liqasının yeni formatı ilə bağlı müzakirə aparıb. Fevralın 9-da qurumun prezidenti Aleksandr Çeferinin sədrliyi ilə müzakirələr aparılıb.**

İclasda bütün qurumlar irəli sürülən təklifə müsbət yanaşıblar. Yeni formatın aprel ayında təsdiq edilməsi gözlənilir. UEFA yeni formatı 2024-cü ildən tətbiq etməyi düşünür. Yeni formata əsasən, ÇL-də komanda sayı 32-dən 36-yadək arta bilər. Komandaların qruplara bölünməsinin ləğvi təklif edilir, əvəzində turnir İsveçrə sistemi ilə oynanılacaq. Beləliklə, hər klub fərqli rəqiblərə qarşı, ən azı, 10 matç (5 evdə, 5 səfərdə) keçirəcək.



**■ Masallı Rayon Mərkəzi Xəstəxanasına yeni baş həkimin təyin olması ilə bağlı məlumatlar yayılıb.**

Xəstəxananın Konsultativ Poliklinka şöbəsinin müdiri Rasim Əzizovun sabiq baş həkimi əvəzlədiyi bildirilir. TƏBİB-dən R. Əzizovun bu vəzifəyə təyin olunmadığı, baş həkimin səlahiyyətlərinin ona həvalə olunduğu bildirilib. Qeyd edək ki, Masallı Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Cəlil Nəzərov və baş mühasibi Sətulla Məmmədov yanvarın 22-də Baş Prokurorluq yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat nəticəsində saxlanılıblar. Binəqədi Rayon Məhkəməsində Cəlil Nəzərov barəsində həbs qətimkan tədbiri seçilib.



**■ Keçən il dövlət büdcəsindən hərbi qulluqçuların mənzillə təmin olunması ilə bağlı xərclər üçün 35 mln. manat vəsait ayrılıb.**

Bu, Azərbaycan Respublikasının 2020-ci il dövlət və icmal büdcəsinin icrasına dair məlumatda əksini tapıb. Sənəddə qeyd edilib ki, həmin vəsait hesabına Mənzil İnşaatı Dövlət Agentliyinin sifarişi ilə inşa edilən Bakı və Naxçıvan şəhərlərində 485 ədəd tam təmirli mənzil alınıb və hərbi qulluqçuların mülkiyyətinə verilməsi rəsmiləşdirilib.



**■ 2020-ci ildə dövlət büdcəsindən kütləvi informasiya vasitələrinə yönəldilən vəsait açıqlanıb. Bu, Azərbaycan Respublikasının 2020-ci il dövlət və icmal büdcəsinin icrasına dair məlumatda əksini tapıb.**

Bildirilib ki, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti, İctimai Televiziya və Radio Yayımları Şirkəti, "Mir" Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan Milli Nümayəndəliyi, Milli Televiziya və Radio Şurası, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun fəaliyyətinin təmin olunması məqsədilə 2020-ci ilin dövlət büdcəsindən üst-üstə 50,6 milyon manat vəsait yönəldilib.



**■ Astara rayon sakini Quliyev Eldar Fərzəli oğlu da Vətən müharibəsində iştirak edərək, Qələbəmizə öz töhfəsini verib.**

Döyüşlər zamanı xəsarətlər almış qazimizi bu günlərdə evində ziyarət edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları onun əlilliyinin qiymətləndirilməsinin aparılacağı barədə məlumat veriblər. Nazirlikdən hafta.az-a verilən məlumata görə, bildirilib ki, əlillik dərəcəsi təyin edildiyi halda qaziyə birdəflik və aylıq sosial ödənişlər veriləcək. Ailənin sosial vəziyyəti öyrənilib. Ailəli olan Eldarın həyat yoldaşı un məmulatlarının istehsalı sahəsi üzrə kiçik müəssisəsini qurmaq üçün özünüməşğulluq proqramına cəlb olunub.



**■ Fevralın 14-də Vətəndaş Həmrəyliyi Partiyasının növbəti Qurultayı keçiriləcək. Ölkədəki pandemiya şərtlərinə uyğun olaraq VHP-nin VIII Qurultayı Onlayn qaydada təşkil ediləcək.**

Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsindən bildirilib ki, Qurultaya VHP-nin 76 bölgə təşkilatı və Naxçıvan Muxtar Respublikası təşkilatından 400 nümayəndə seçilib. VHP VIII qurultayında VHP-nin qurultaylararası dövrdə fəaliyyəti, ölkədəki ictimai siyasi durumun müzakirə ediləcək və nizamnaməyə uyğun olaraq təşkilati məsələlərə baxılacaq. Qeyd edək ki, VHP-nin sədri millət vəkili Sabir Rüstəmxanlıdır.



**■ Alimlər qeyd edirlər ki, ömrün uzadılması üçün əsas və eyni zamanda, əlçatan üsullardan biri fiziki fəaliyyətdir. Gündə 15 dəqiqə müntəzəm olaraq fiziki fəaliyyətlə məşğul olmaq tövsiyə edilir.**

Fiziki məşqlərin və hərəkətin yaşlanma prosesini yavaşlataraq insanların həyatını uzada biləcəyini sübut edən dəlillər varmı? Bəli, onlar mövcuddur. AARP Təşkilatının (Amerika pensiyaçılar Assosiasiyası) müraciət etdiyi Harvard Universitetinin araşdırması göstərdi ki, "15 dəqiqəlik gündəlik fiziki aktiv fəaliyyət həyat davamiyyətini üç il artıra bilər". Alimlər səkkiz illik araşdırmanın nəticələrinə əsaslanaraq belə bir həcmdə fiziki aktivliyin ölümün bütün səbəblərdən 14 faiz azalmasına gətirdiyini bildirirlər.

## Reportaj

Məktəb küçəsi ilə üzü güncıxana doğru addımlayıram. Küçəboyu döşənmiş kəsmə daşların üstündə nə görməyə adət etdiyimiz çala-çuxur var, nə də zibil qırıntıları gözə dəyir, hər yan tərtəmizdir. Dar küçələrin ətrafını saran evlərin divarları da, düz sözümdür, xalı kimi bəzənib. Qəsəbənin qədim mədəniyyətini-məişətini də özündə cəmləyən təsəvvürlərin canlandırıldığı divar rəsmləri boyalarla rəssamlar tərəfindən işlənib.

**Bibiheybət qəsəbəsindən söz düşəndə ilk ağlımıza gələn qədim neft mədənləri, hə, bir də Bakının güney girişində əzəmətlə qonaqları salamlayan müqəddəs ziyarətgahdır. Ziyarətgahın arxasına sığınmış eyniadlı kiçik qəsəbə isə heç kimdə maraq oyatmayıb - ta ki, 2019-cu ildə burada yenidənqurma-bərpa işlərinə start verilincə. Bu layihəyə başlayandan sonra qəsəbə dillər əzbərinə çevrilib desək, yanılmarıq. Bibiheybət məscidinin sağ tərəfindən içəri burulub üzü güncıxana uzanan dar küçə ilə irəlilədikcə, özümü Aralıq dənizi sahillərində yerləşən ekzotik ölkələrdə hiss elədim. Heç elə bil, əvvəllər gördüyüm və ya haqqında oxuduğum baxımsız, neft çirkabına bulaşmış balaca yaşayış məntəqəsi deyilmiş. Küçələrə doğrama qara qəmbər daşlar döşənib, bütün evlərin damı qırmızı-qonur, qapılar, darvazalar, pəncərələrin çərçivələri isə qara rənglə rənglənib.**



# İnsan əllərinin möcüzəsi - cənnətə çevrilən Bibiheybət



Məktəb küçəsi və onunla kəsişən kiçik dalanlarda yerləşən evlərin qapısında ənənəvi, amma təəssüf ki, son illərdə ehtiyac duymadığımız poçt qutuları quraşdırılıb. Özü də elə qutular ki... Məsələn, evlərdən birinin küçə qapısında bir qutu gördüm, üzərində Cəlil Məmmədquluzadənin məşhur “Poç qutusu” sözləri yazılmış və həmin əsərdən personajın şəkli əks olunmuşdu. Yəni Qurbanəli bəy məktubu qutuya salarkən..

Qeyd edim ki, hər poçt qutusunun üzərinə fərqli şəkillər çəkilib.

Küçəboyu bir neçə yerdə, içində ərzaq məhsulları satılan ənənəvi məhlə dükanları gördüm. Adət etdiyimiz yöndəmsiz, içi meyvə-tərəvəzlə dolu yeşikləri divar boyunca düzən dükanlardan fərqli olaraq, burada incə səliqə vardı: divarların rəngi, dam örtüyü və s. qəsəbənin ümumi ahənginə uyğunlaşdırılıb, hətta dükanın adı da çox qəribə ornamentlərlə yazılıb - İtaliyada, İspaniyada olduğu kimi.

Hə, tamam unutmuşdum, qəsəbənin girişində - Məktəb küçəsinin lap yuxarı başında biri kiçik, digəri böyük olan iki qədimi üslublu köşk qoyulub, içi də kitabla dolu. Hə, deyirsiniz bu da rəssam təxəyyülüdür, ola bilər, axı bura turizmin gələcək mərkəzlərindən olacaq Bibiheybətdir...

Bir az da irəliləyirəm, nisbətən geniş meydançaya çatıram. Tən ortada uzunsov-oval şəklində, tamam yaşıllığa bürünmüş park var, ortasında da üstü günbəz kimi bağlanmış, hələlik suyu olmasa da, gələcəkdə işə salınacaq fontan. Ətrafına da bozrəngli taxta oturacaqlar qoyulub. Meydançanın sağ tərəfində qəsəbənin yeganə təhsil ocağı - Cəbrayıl Əsgərov adına 50 saylı tam orta məktəbin binası yerləşir. Hə, yuxarıdan - hələlik abadlaşdırılmasına start verilməmiş Namiq Quliyev küçəsindən üzüaşağı meydançaya bir dalan enir, meydançanın qərbində isə ikiqatlı qəşəng bina var. Hələlik qapıları bağlıdır, amma dedilər ki, poliklinika olmalıdır. Meydançanın üç tərəfində divarların dibində isə sanki qədim atarabasına bənzəyən, qara taxtadan tikilmiş köşklər var. Yaxın gələcəkdə sənətkarlıq işləri, broşürlər, suvenirlər və s. satılacaq bu köşklər meydançanın əski görkəmini daha da qabardır.

Hə, indicə qeyd etdim axı. Meydançadan üzüyuxarı - Namiq Quliyev küçəsinə doğru pilləkənlərlə qalxan bir dalan da var. Qısa məsafədə üstü qara rəngə boyanmış taxta üzüm talvarı ilə örtülən həmin dalan açıq havada muzeyə bənzəyir. Dalan boyunca hər iki tərəfdə yerləşən evlərin divarları bir-birindən seçilməyəcək qədər oxşar rənglənib, bəzənib.



Qapılara vurulmuş poçt qutuları, divar boyunca düzülmüş, qədim küp bənzəri iri saxsa qablar və içində əkilmiş dibçəklər, üstəlik, üzərində qəsəbənin qədim tarixini əks etdirən simvollar oyulmuş daş lövhələr burada adamı heyran etməkdədir.Məsələn, həmin daş lövhələrdən birinin üzərində fantan üslu ilə neft çıxaran qədim neft buruğu və yanında orada işləyən fəhlələr əks olunub Başqa bir daş lövhənin üstündə belinə çəlləklər yüklənmiş dəvə karvanı həkk edilib. Bu da onu göstərir ki, qədimdə bu qəsəbə neft çəlləkləri daşıyan karvanın istinad yeri olub.

Digər daş lövhədə isə “Bibiheybətdə ilk elektrik stansiyası, 1901-ci il” sözləri yazılıb. Burada daha bir daş büstmü deyim, abidəmi, yoxsa sadəcə lövhəmi deyim, üstündə mazutla işləyən iri gəminin silueti qoyulub. Altında da yazılıb ki, “Zoroastr” - 1878. Dünyada neft daşıyan ilk Azərbaycan tankeri.

Meydançanın günbatanında - məktəbin divarı tərəfdə çox böyük lövhə işlənib ki, hər kəs burada ayaq saxlayıb, mütləq yadigar qalsın deyə şəkil çəkdirir. Lövhədə hündürtağlı sütunları olan darvaza, arxa fonda isə Bibiheybət məscidi əks olunub. Rəngli boya ilə rəssamlar tərəfindən 3D formasında işlənən bu lövhəyə baxan adama elə gəlir ki, indicə həmin darvazadan keçib məscidə getmək mümkündür. Küçə bir az da günbatana enərək, hündür qalanı xatırladan otel binasının yanında başa çatır. Orada bala bir bağ salınıb, ətrafında isə yerə kəsə daş döşəyən ustalar işləyirdi.



**■ Yenidən mərkəzə - Məktəb meydanına qayıtdım. Oturacaqda oturan ortayaşlı qadın iki-üç azyaşlı uşağı başına yığıb nəsə danışırdı.** Salamlaşıb söhbətə başladım. Adı Gülnarə olan bu xanım jurnalist olduğumu biləndə, maşallah, bülbül kimi açıldı:

- Allah köməyi olsun buranı düzəldənlərin. Nə gözəl, nə rahat şərait yaradıblar.

Qımışdım:

***- Əvvəl deyəsən, çox əziyyət çəkmisiniz...***

- Hə, elədir, axşamçağı burada küçəyə çıxmaq nə idi? Hər yer qaranlıq zülmət olardı, adam üşənirdi. Evim budur, düz, on addımlıqda (əlini qarşıdakı, küçənin üstünü bağlayan bəyazrəngli arkanın üstünə uzadır). Görün nə gözəldir, yay axşamlarında çay içmək üçün əla eyvan düzəldiblər.

Gülnarə xanım bir anlıq susaraq ətrafı süzdü. Gözlərində sevinc işıldayan bu qadın məni arxadakı üstüşəkilli lövhənin yanına çəkdi:

- Şəkillərə baxın, özünüz hər şeyi hiss edəcəksiniz. Bu evin əvvəlki halıdır, bu isə (əlini qarşıdakı evə uzadır) indiki vəziyyətidir (şəkillərin müqayisəsinə başlayır). Çox evlər vardı ki, dam örtüyü köhnəlmişdi, qapı-pəncərələri yararsız idi, amma görün nə qəşəng düzəldiblər. Haradasa 2 il olar başlayıblar buraları düzəltməyə, bu qısa vaxtda qəsəbəmiz tamam dəyişib. Ayağımızın altına döşənmiş daşlara baxın, Bakının mərkəzindən seçilmir buralar. Əvvəl bilirsiniz, buralar nə gündəydi? Yol-riz çala-çökək, yağış yağanda su dolurdu, get görüm necə gedirsən? Xüsusilə də axşamlar hər yer qara zülmətə bürünürdü. Yer də ki, çala-çökək. Hələ iş gedir, yəqin, hökumət burada daha çox iş görəcək, qəsəbəmiz daha gözəl olacaq...

**■ Üzümü oturacaqda oturub günəşlənən Əli adlı balaca oğlana tutub, yaşadığı bu yerlərin xoşuna gəlib-gəlmədiyini soruşdum.**

- Yaxşıdır, çox yaxşıdır... Mənim xoşuma gəlmir, - deyib üz-gözünü turşutdu.

Əlinin bu gözəlliyə əvvəl “yaxşıdır” deyib, sonra isə üz-gözünü turşutması məni çox heyrətləndirdi. Səbəbini soruşdum, açdı ürəyini:

- Mən Qubada yaşayıram, burada nənəmgildəyəm. Doğrudan da qəşəng düzəldiblər, amma bu, böyüklərə daha çox lazımdır. Mənim 11 yaşım var, oynamaq istəyirəm, amma qoymurlar. Burada topla oynayıram, deyirlər olmaz, yaşıllığa ziyan vura bilərsən. Orada (əlini məktəbin divarına sarı uzadır) oynayıram, deyirlər, top divara dəyir, üzlük daşlar zədələnir. Hamı balaca olduğumu görüb üstümə qışqırır, hamı məni günahkar görür, amma oynamaq üçün yer ayırmaq heç kimin yadına düşmür...

Özümdən asılı olmayaraq balaca Əlini dilə tutmaq istədim:

***- Bax, işlər hələ yekunlaşmayıb, sizin üçün oyun meydançası da düzələcəklər, amma bir az səbirli olun, nə divarları qoparın, nə də güllərə ziyan vurun, hər şey yaxşı olacaq.***

- Biz heç yana ziyan vurmuruq, güllər mənim də xoşuma gəlir, axı bütün günü oturacaqda oturub qala bilmərik...

Haqlı etiraz idi. Balacalar üçün məxsusi yerin olmasını layihə müəllifləri yaddan çıxarmamışdılar. Səbail Rayon İcra Hakimiyyəti başçısının müavini Vüqar Şıxməmmədovun sözlərinə görə, hələlik tikinti-bərpa işlərinin ilkin mərhələsi başa çatdırılır. İkinci mərhələdə burada uşaqlar üçün oyun meydançalarının inşasına başlanılacaq. Burada ən vacib məsələ (iş yerlərinin yaradılması nəzərdə tutulur) - əl sənəti nümunələrinin istehsalı ilə məşğul olacaq sexlər açılacaq ki, bu da neçə sakinin işlə təmin olunması deməkdir. Sadəcə, balaca dostlarımızın bir qədər səbirli olması, gözləməsi lazımdır.

...Azan sədaları məni sakinlərlə söhbətdən ayırdı. Əslində, danışılacaq sözlərimiz çoxdur, amma geri qayıtmaq lazım idi. Sağollaşıb kəsmə daşlar düzülmüş küçə ilə üzüyuxarı addımlayıb, gündən-günə cənnətə çevrilən bu ekzotik qəsəbənin ənginliklərindən ayrılıram...

✍ *Vüsal Tağıbəyli*

## Samirə “Eurovision”da casus Mata Haridən oxuya bilər

**Müğənni Samirə Əfəndinin “Eurovision” mahnı müsabiqəsi üçün namizəd 6 mahnının adı açıqlanıb. Sözügedən bəstələr Əfəndinin ifasında “Focus Group”a təqdim edilib, biri qalib seçiləcək.**

Bunlar ingilis dilində “Mata Hari”, “Ratata”, “When I’m gone”, “Manifesto”, “Breathing You” və “Owe You Pretty”dir. Mahnılar arasında “When I’m gone” və “Breathing you” ballada stilindədir. Digər dördü isə yüksək templidir.

Məlumatı “İnfe Azerbaijan” ictimaiyyətə təqdim edib. Bundan əlavə, mahnılar arasında ən



diqqətçəkən “Mata Hari”dir. Belə ki, sözügedən bəstə əslən Hindistandan olan rəqqasə, alman kəşfiyyatçı Mata Hari (Marqareta Qertruda Zelle) ilə bağlıdır. O, 50 min fransız əsgərin ölümündə təqsirli hesab edilərək 1917-ci ildə edam olunub. 41 yaşlı Mata ölümündən sonra dünyada “Fransanı məhv edən qadın” adı ilə daha də məşhurlaşıb. Onun haqqında çoxlu sayda filmlər çəkilib. Həmçinin, o, dünyanın axarını dəyişən əfsanəvi kəşfiyyatçı qadın olaraq qalmaqda davam edir.




## "Nar" "Karabakh is Azerbaijan" beynəlxalq onlayn şahmat seriyasına dəstək olub

Gənclərin intellektual inkişafına hər zaman xüsusi önəm verən “Nar” chess.az saytının “Karabakh is Azerbaijan” beynəlxalq onlayn şahmat seriyasına dəstək olub. Seriya 8 turnirdən və böyük finaldan ibarətdir. Turnirlərin hər biri Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş rayonların adını daşıyır.

Martın 14-də baş tutacaq böyük finalda 8 turnirin nəticələrinə görə, 10 ən güclü şahmatçı mübarizə aparacaq. Qalib gələcək şahmatçılar “Nar” tərəfindən dəyərli hədiyyələrlə mükafatlandırılacaq. Seriya lichess.org şahmat platforması üzərindən keçirilir. Qeyd edək ki, koronavirus infeksiyası ilə əlaqədar olaraq ölkədə karantin rejiminin davam etməsi səbəbindən şahmat yarışları onlayn keçirilir.

## Əməkdar artist vəfat etdi

**Əməkdar artist Əlican Əzizov vəfat edib. Bu barədə Mədəniyyət Nazirliyi məlumat yayıb. Bildirilib ki, uzun illər Gəncə Dövlət Dram Teatrında aktyor kimi fəaliyyət göstərən Əlican Əzizov 69 yaşında həyatını itirib.**

Qeyd edək ki, Əlican Əzizov 1952-ci il fevralın 23-də anadan olub. 1975-1996-cı illərdə Gəncə Dövlət Dram Teatrında fəaliyyət göstərib. Aktyor, həmçinin, “Azərbaycanfilm”in istehsalı olan “Süd dişinin ağrısı”, “Dairə”, “Şahid qız” filmlərində çəkilib. Əlican Əzizov 2000-ci ildə Əməkdar artist fəxri adına, 2006-cı ildə Prezident mükafatına layiq görülmüşdü.

## GÜNÜN FOTOSU



**Trampa qarşı impicment komissiyası yenidən toplanır...**

## Qarabağda yaşanan ziddiyyətli məqamlar

**Qabil Hüseynli,**
politoloq

Bölgədəki problemləri Minsk Qrupunda olan həmsədr dövlətlər yaradır. Səh. 2

## STATİSTİKA



■ İnsan bədənindəki kalsiumun 99 faizi dişlərdə cəmlənib.

■ Orqanizmimizdəki bütün dəmir hissəciklərini toplasaq, onun həcmi saatın kiçik bir şurupu boyda belə etməz.

■ Divara dəyən baş zərbəsi nəticəsinhdə insan bir saata 150 kilokalori itirir.

■ Statistik göstəricilərə əsasən insan dərisi ömür boyu orta hesabla 100 dəfə dəyişir.



Səh. 7

## Qarabağdakı mina faciələrinin qarşısını necə almalı?